RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 151 (10171) 22 avqust 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Tarixi əhəmiyyətə malik 7-ci səfər ərəfəsində



## Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibə verib

Dövlətlərimiz arasında siyasi dialoq çox yüksək səviyyədədir. Sözsüz ki, son beş ildə ən yüksək səviyyədə müntəzəm 15 qarşılıqlı səfər və sıx təmaslarımız bu əlaqələrin dinamik inkişafı və möhkəmlənməsi üçün əlverişli şərait yaradır.

Bu, son beş ildə mənim üçüncü dövlət və ümumilikdə qardaş ölkəyə yeddinci səfərimdir. Gözəl və bənzərsiz Özbəkistana səfər etməkdən daim böyük məmnunluq duyuram və hər səfər mənim üçün xüsusi əhəmiyyətə malikdir. Ənənəvi olaraq bu səfərlər müstəsna qonaqpərvərlik, qardaşlıq, səmimiyyət və qarşılıqlı anlaşma mühitində baş tutur. Qardaş Özbəkistana səfərlərimdə məni ən çox sevindirən son illərdə ölkənin bütün sahələrdə sürətli inkişafıdır. Müasir şəhərlərin salınması, iqtisadiyyatın şaxələndirilməsi, genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi, elmə, təhsilə, mədəniyyətə və idmana göstərilən diqqət ölkənin yüksək inkişaf tempini əyani şəkildə nümayiş etdirir.

Özbəkistan lideri, əziz qardaşım, hörmətli Şavkat Miromonoviç Mirziyoyevin müdrik rəhbərliyi ilə ölkənin kompleks şəkildə inkişafı və tərəqqisi, həmçinin beynəlxalq nüfuzunun davamlı surətdə möhkəmlənməsi və bütün əsas sektorlarda əhəmiyyətli uğurlara nail olunması istiqamətində ardıcıl həyata keçirilən genişmiqyaslı fəaliyyət səmimi hörmət və dərin məmnunluq hissi doğurur. Bütün bunlar Prezidentin düşünülmüş siyasətinin, strateji vizyonunun və Vətənə sevgisinin, həmçinin səmərəli dövlət idarəçiliyinin nəticəsidir.

2



## Dövlət proqramı turizmin daha sürətli inkişafına geniş imkanlar yaradacaq

Prezident İlham Əliyevin 20 avqust 2026-cı ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" da ölkəmizdə turizmin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Proqramda diqqət turizmin ölkənin sosial-iqtisadi inkişafında rolunun gücləndirilməsi, qeyri-neft-qaz iqtisadiyyatının şaxələndirilməsi, regionların rəqabət qabiliyyətinin artırılması və Azərbaycanın beynəlxalq turizm məkanı kimi mövqeyinin möhkəmləndirilməsinə yönəldilib. Sənəddə qeyd olunub: "Dövlət proqramında müəyyən olunmuş hədəflərin reallaşdırılması üçün turizm sahəsində strateji çərçivənin inkişaf etdirilməsi, digər sahəvi siyasətlərin turizm siyasəti ilə uzlaşdırılması, dayanıqlı keyfiyyət təminatı sisteminin qurulması, cəlbedici təşviq mexanizmlərinin formalaşdırılması, tənzimləmə alətlərinin təkmilləşdirilməsi, brendinq, marketinq və kommunikasiya işinin gücləndirilməsi, rəqəmsallaşma imkanlarının genişləndirilməsi, statistika və kadr bazasının möhkəmləndirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi müəyyən edilmişdir".

Yeni dövlət proqramının diqqətçəkən istiqamətlərindən biri ölkəmizin turizm baxımından əlçatanlığının artırılmasıdır. Bunun üçün hava nəqliyyatının turizmin inkişafına töhfəsinin artırılması, yeni və əlavə aviareyslərin təşviqi və digər məsələlər nəzərdə tutulub. Viza siyasətinin təkmilləşdirilməsi də gəlmə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

6

## Yeni əsasnamə kiçik və orta biznesə yeni imkanlar verəcək

Prezident İlham Əliyev avqustun 20-də İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin (KOBİA) Əsasnaməsinin təsdiq edilməsi barədə fərman imzalayıb. Bu sənədə əsasən, agentliyin fəaliyyət istiqamətləri genişlənəcək.

Əvvəla xatırladaq ki, bu agentlik mikro, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, qeyri-neft-qaz sektoru üzrə investisiyaların və ixracın təşviqi istiqamətində fəaliyyət göstərən, sahibkarlıq subyektlərinin maraqlarının qorunmasında iştirak edən, dövlət orqanlarının (qurumlarının) və sahibkarların bu sahədə xidmətlərini əlaqələndirən İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan qurumdur.

Agentliyin əsasnaməsində onun fəaliyyət istiqamətləri,vəzifələri, hüquqları və digər məsələlər öz əksini tapıb. Belə ki, agentliyin fəaliyyət istiqamətlərinə müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə həyata keçirilməsini təmin etmək, dövlət dəstəyi tədbirlərinin və mexanizmlərinin həyata keçirilməsi ilə bağlı işlər görmək, sahibkarların, o cümlədən investorların və ixracatçıların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üzrə tədbirlər həyata keçirmək daxildir.

5

## 907-ci düzəlişin hüquqi ləğvi labüddür

### Yeni reallıqlar bu köhnə və ədalətsiz qərarın tamamilə aradan qaldırılmasını şərtləndirir

Bu gün Cənubi Qafqazda şərtləri Azərbaycanın tarixi Zəfəri ilə müəyyənləşən tamamilə yeni reallıqlar mövcuddur. Ölkəmiz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə yanaşı, regionda davamlı sülhün və əməkdaşlığın əsas memarına çevrilib. 2025-ci ilin avqustun 8-də Ağ Evdə Prezident Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətninin paraflanması, Bakının birtərəfli qaydada bütün tranzit məhdudiyyətlərini aradan qaldırması bunun əyani sübutudur. Azərbaycan bu gün Ermənistana Rusiya və Qazaxıstandan müxtəlif yüklərin daşınmasına şərait yaradır, eyni zamanda bu ölkəni neft məhsulları ilə təchiz edir. Bütün bunlar, eləcə də TRIPP marşrutu adlanan Zəngəzur dəhlizinin icrası prosesinə başlanması 30 il öncənin ədalətsiz qərarının birdəfəlik ləğvini labüd edir.



Prezident İlham Əliyev bu məsələdə dövlətimizin prinsipial mövqeyini dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Dövlətimizin başçısı IV Şuşa Qlobal Media Forumunda çıxışı zamanı bildirmişdi ki, bu qərar 1992-ci ildə ABŞ Konqresinin Azərbaycana münasibətdə çox ədalətsiz addımı idi: "O vaxt, Sovet İttifaqının süqutundan sonra yeni yaranan ölkələrə maliyyə yardımı formasında dəstəyin verilməsi üçün ABŞ Konqresi "Azadlığa Dəstək Aktı"nı qəbul etdi və 907-ci düzəliş ermənipərəst senatorlar tərəfindən irəli sürülmüşdür. Yeri gəlmişkən, Prezident Bayden onlardan biri idi".

4

## Azərbaycan terrorun acı nəticələri ilə üzləşmiş ölkədir

Son illərdə aparılan beynəlxalq tədqiqatlardan və BMT-nin statistikalarından aydın olur ki, terror aktları, sadəcə, insan həyatına son qoymur, cəmiyyətlərin iqtisadi və sosial strukturunu kökündən dağıdır. BMT-nin rəsmi hesabatlarına əsasən, terrorizmin qurbanları çox vaxt illərlə sağalmayan dərin psixoloji yaralarla yaşamağa məcbur qalırlar. Qlobal miqyasda terror hadisələrinin fəsadları həm də ölkələrin iqtisadiyyatına ciddi zərbə vurur, milyonlarla insanın qaçqın və məcburi köçkünə çevrilməsinə səbəb olur.



Terror aktlarından sağ qurtulan insanlar dərin fiziki, psixoloji və sosial travmalar yaşayırlar. Ancaq bir çox dövlətin bu insanların ehtiyaclarını qarşılamaq üçün kifayət qədər resursu və ya ixtisaslaşmış infrastrukturu yoxdur. Qurbanların cəmiyyətə yenidən inteqrasiyası və normal həyata qayıtması üçün uzunmüddətli, hərtərəfli dəstəyə böyük ehtiyacı var. Çox vaxt insanlar cəmiyyətin unutqanlığı və laqeydliyi ilə üzləşirlər ki, bu da mövcud travmaları daha da dərinləşdirir. Bu istiqamətdə əsas məsuliyyət isə üzv dövlətlərin üzərinə düşür: dövlətlər qurbanların pozulmuş hüquqlarını qorumalı və onlar üçün çoxsahəli yardım planları hazırlamalıdırlar. Beynəlxalq təşkilatlar xüsusilə vurğulayırlar ki, sosial reabilitasiya mərkəzlərinin yaradılması və maliyyə dəstəyi sistemlərinin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

4

# Tarixi əhəmiyyətə malik 7-ci səfər ərəfəsində

## Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

***- Hörmətli cənab Prezident, Azərbaycan-Özbəkistan münasibətləri son illər dinamik şəkildə inkişaf edib və ən yüksək müttəfiqlik səviyyəsinə çatıb. Özbəkistana bu yaxınlarda gözlənilən dövlət səfəriniz ərəfəsində Siz ikitərəfli münasibətlərin hazırkı vəziyyətini və inkişaf perspektivlərini necə qiymətləndirirsiniz?***

- İki qardaş ölkə - Azərbaycan və Özbəkistan arasında münasibətlər ortaq tarixə, mədəniyyətə, dil və mənəvi dəyərlərə, həmçinin birliyə, həmrəyliyə və xalqlarımızın əsrlərlə davam etdirdiyi, nəsildən-nəslə ötürdüyü dərin qarşılıqlı rəğbətə əsaslanır. Bu möhkəm bünövrə üzərində qurulan dövlətlərarası münasibətlər son illər misli görünməmiş inkişaf mərhələsinə qədəm qoyub, ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə yüksəlib və tamamilə yeni məzmun qazanıb.

Özbəkistan Respublikasının Prezidenti, əziz qardaşım, hörmətli Şavkat Miromonoviç Mirziyoyev ilə mənim aramda mövcud olan səmimi dostluq, qarşılıqlı hörmət və etimad Azərbaycan-Özbəkistan qardaşlığının möhkəmlənməsində, dövlətlərarası əlaqələrin hazırkı səviyyəyə qaldırılmasında və müttəfiqliyimizin inkişafında xüsusi rol oynayır. Prezident Mirziyoyevin ölkələrimiz arasında qardaşlıq, birlik və müttəfiqlik naminə yorulmaz və qətiyyətli fəaliyyəti ona Azərbaycanda dərin hörmət və rəğbət qazandırıb.

Artıq qeyd etdiyim kimi, dövlətlərimiz arasında siyasi dialoq çox yüksək səviyyədədir. Sözsüz ki, son beş ildə ən yüksək səviyyədə müntəzəm 15 qarşılıqlı səfər və sıx təmaslarımız bu əlaqələrin dinamik inkişafı və möhkəmlənməsi üçün əlverişli şərait yaradır.

Bu, son beş ildə mənim üçüncü dövlət və ümumilikdə qardaş ölkəyə yeddinci səfərimdir. Gözəl və bənzərsiz Özbəkistana səfər etməkdən daim böyük məmnunluq duyuram və hər səfər mənim üçün xüsusi əhəmiyyətə malikdir. Ənənəvi olaraq bu səfərlər müstəsna qonaqpərvərlik, qardaşlıq, səmimiyyət və qarşılıqlı anlaşma mühitində baş tutur. Qardaş Özbəkistana səfərlərimdə məni ən çox sevindirən son illərdə ölkənin bütün sahələrdə sürətli inkişafıdır. Müasir şəhərlərin salınması, iqtisadiyyatın şaxələndirilməsi, genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi, elmə, təhsilə, mədəniyyətə və idmana göstərilən diqqət ölkənin yüksək inkişaf tempini əyani şəkildə nümayiş etdirir.

Özbəkistan lideri, əziz qardaşım, hörmətli Şavkat Miromonoviç Mirziyoyevin müdrik rəhbərliyi ilə ölkənin kompleks şəkildə inkişafı və tərəqqisi, həmçinin beynəlxalq nüfuzunun davamlı surətdə möhkəmlənməsi və bütün əsas sektorlarda əhəmiyyətli uğurlara nail olunması istiqamətində ardıcıl həyata keçirilən genişmiqyaslı fəaliyyət səmimi hörmət və dərin məmnunluq hissi doğurur. Bütün bunlar Prezidentin düşünülmüş siyasətinin, strateji vizyonunun və Vətənə sevgisinin, həmçinin səmərəli dövlət idarəçiliyinin nəticəsidir.

2024-cü ilin avqustunda mənim Özbəkistana dövlət səfərim, 2025-ci ilin iyulunda isə Özbəkistan Prezidentinin Azərbaycana dövlət səfəri oldu. Bu ikitərəfli səfərlər zamanı imzalanan çoxsaylı sənədlər, xüsusən "Strateji tərəfdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə" və "Müttəfiqlik münasibətləri haqqında Müqavilə" iki müstəqil, güclü və suveren dövlətimiz arasında təbii müttəfiqliyi rəsmi olaraq möhkəmləndirdi. Bu sənədlər ölkələrimiz arasında əlaqələrin hüquqi və siyasi əsaslarını daha da gücləndirdi və əməkdaşlığımızın gələcək inkişafı üçün yeni imkanlar açdı.

Bununla yanaşı, 2023-cü ilin avqust ayında təsis edilmiş Ali Dövlətlərarası Şura Azərbaycan ilə Özbəkistan arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin dərinləşdirilməsi üçün mühüm institusional mexanizmə çevrildi. Bu platforma ölkələrimiz arasında uzunmüddətli əməkdaşlıq prioritetlərini müəyyənləşdirməyə, yeni təşəbbüslərin təşviqinə və müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin səmərəli şəkildə əlaqələndirilməsinə xidmət edir. Şuranın artıq Daşkənddə və Bakıda keçirilən iki iclası Azərbaycan-Özbəkistan münasibətlərinin yüksək inkişaf tempini, siyasi dialoqun ardıcıllığını və ölkələrimizin perspektivə hesablanmış birgə fəaliyyət əzmini nümayiş etdirir.

Bu gün siyasi münasibətlərimiz iqtisadiyyat, investisiya, sənaye, nəqliyyat, logistika, enerji, kənd təsərrüfatı, təhsil, elm, mədəniyyət və humanitar sahələrdə genişmiqyaslı əməkdaşlıq tədbirləri ilə daha da zənginləşir. Həyata keçirilən layihələr ölkələrimizin iqtisadi potensialını birləşdirməklə yanaşı, xalqlarımız arasında dostluq və qardaşlıq bağlarını daha da möhkəmləndirir.

Əminəm ki, qarşıdakı səfər də ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın daha da genişləndirilməsi, yeni birgə təşəbbüslərin həyata keçirilməsi və müttəfiqlik münasibətlərimizin möhkəmləndirilməsi nöqteyi-nəzərindən böyük əhəmiyyətə malik olacaq.

***- Azərbaycan-Özbəkistan münasibətlərinin mühüm istiqamətlərindən biri iqtisadi-ticari əməkdaşlıqdır. Bu sahədə əldə edilən uğurlar barədə nə deyə bilərsiniz?***

- İqtisadi-ticari əməkdaşlığımız son illərdə sürətli inkişaf dinamikası nümayiş etdirir. Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsi 2025-ci ildə əvvəlki illə müqayisədə üç dəfədən çox artıb və 795 milyon dollar təşkil edib. Bu, əla göstəricidir. Bundan əlavə, 2026-cı ilin yanvar-may aylarında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollara çatıb.

Üç il əvvəl 500 milyon ABŞ dolları məbləğində ümumi kapitalla təsis edilən Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti ölkələrimiz arasında investisiya əməkdaşlığının inkişafı üçün mühüm platformaya çevrilib. Şirkət həm Azərbaycanda, həm də Özbəkistanda iqtisadiyyatın müxtəlif sektorlarında perspektivli layihələrin maliyyələşdirilməsinə və həyata keçirilməsinə əhəmiyyətli töhfə verir.

Bundan əlavə, Hökumətlərarası Komissiya iqtisadi, ticari, investisiya və digər sahələrdə əlaqələrin inkişafında mühüm rol oynayır. Bu günə qədər komissiyanın 15 iclası keçirilib. Bu yaxınlarda Daşkənddə keçirilən son iclasda Azərbaycan-Özbəkistan iqtisadi-ticari əməkdaşlığının mövcud vəziyyəti, qazanılan nailiyyətlər və inkişafın gələcək istiqamətləri ətraflı müzakirə olunub.

Həmçinin energetika sektorunda əməkdaşlığımız fəal şəkildə inkişaf edir. Özbəkistanın OZLITINEFTGAZ institutu və "SOCAR NIPI Nefteqaz"ın bazasında yaradılan "Neftegaztexnologiya" birgə müəssisəsi 2016-cı ildən bəri neft-qaz sahəsində uğurla fəaliyyət göstərir. Bundan əlavə, 2024-cü ildə yaradılan SOCAR və "Özbəkneftegaz" SC arasında birgə müəssisə olan "Turan Energy AFEZCO" "Azərikimya" İstehsalat Birliyi tərəfindən istehsal olunan yüksəktəzyiqli polietilenin Özbəkistana ixracını həyata keçirir.

"Yaşıl enerji" sahəsində əməkdaşlığımız da davam edir. 2025-ci ildə Azərbaycan, Qazaxıstan və Özbəkistanın müvafiq energetika idarələri tərəfindən Bakıda "Yaşıl Dəhliz Birliyi" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis olunub. Bu birgə müəssisə Azərbaycan-Mərkəzi Asiya "yaşıl enerji" dəhlizi layihəsinin həyata keçirilməsini, bərpaolunan enerji ixracını və onun Xəzər dənizinin dibi ilə nəqli imkanlarını əlaqələndirmək məqsədilə yaradılıb.

İki ölkə arasında tranzit daşımalarında artım müşahidə olunur. 2025-ci ildə daşımaların həcmi 6,7 faiz artıb və 1,4 milyon tona çatıb. Bu ilin yanvar-iyun aylarında da 12,2 faizlik artım qeydə alınıb və həmin göstərici 675 min ton təşkil edib.

Özbəkistan tərəfi ilə həyata keçirilən bir sıra birgə layihələr ölkələrimiz arasında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinə və yeni inkişaf imkanlarının yaradılmasına əhəmiyyətli töhfə verir. İşğaldan azad edilmiş Füzuli rayonunda "Dostluq bağı" adlandırılan 100 hektarlıq nar bağının salınmasını, həmçinin "Chevrolet" və "Isuzu" markalı avtomobillərin istehsalı sahəsində əməkdaşlığı bu istiqamətdə xüsusi qeyd etmək olar. Arayış üçün deyə bilərəm ki, 2026-cı il iyulun 13-nə olan məlumata görə, ümumilikdə "Chevrolet" markalı 10 min 720 avtomobil və "Isuzu" markalı 275 avtobus istehsal edilib.

Hazırda ölkəmizdə Özbəkistan investisiyalı 130-dan çox kommersiya təşkilatı qeydiyyatdan keçib və onlar müxtəlif iqtisadi sektorlarda - sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərirlər. Özbək şirkətlərinin Azərbaycanda fəaliyyəti ölkələrimiz arasında qarşılıqlı etimadın, əlverişli investisiya mühitinin və güclü iqtisadi tərəfdaşlığın göstəricisidir.

Azərbaycan ilə Özbəkistanın iqtisadi imkanları bir-birini tamamlayır və yeni əməkdaşlıq formatlarının yaradılması üçün geniş üfüqlər açır. Biz Azərbaycan şirkətlərinin Özbəkistanda və özbək şirkətlərinin Azərbaycanda daha fəal iştirakını, həmçinin birgə istehsal və investisiya layihələrinin sayının artmasını dəstəkləyirik.

Azərbaycan da Özbəkistanda investisiya layihələri həyata keçirir. Bu layihələr arasında "PASHA Holding" tərəfindən "The Ritz-Carlton" brendi altında Daşkənddə inşa edilən hotel və yaşayış kompleksini, həmçinin Daşkənd vilayətində "Sea Breeze Uzbekistan" böyük turizm və yaşayış kompleksini qeyd etmək olar.

Əminəm ki, qarşılıqlı faydaya əsaslanan iqtisadi tərəfdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək, yeni təşəbbüslərlə zənginləşəcək və Azərbaycan-Özbəkistan müttəfiqlik münasibətlərinin mühüm sütunlarından biri kimi xalqlarımızın rifahına xidmət edəcək.

***- Sizin fikrinizcə, mədəni diplomatiya Azərbaycan-Özbəkistan dövlətlərarası əlaqələrinin möhkəmlənməsində hansı rolu oynayır?***

- Azərbaycan ilə Özbəkistan arasında ortaq köklərə, dil və mədəni yaxınlığa, əsrlər boyu formalaşan mənəvi dəyərlərə əsaslanan mədəni və humanitar əməkdaşlıq münasibətlərin ayrılmaz və vacib sahəsidir. Bu sahədə həyata keçirilən əməkdaşlıq xalqlarımız arasında qarşılıqlı anlaşmanın, etimadın, dostluğun və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə mühüm töhfə verir, humanitar əlaqələri yeni məzmunla zənginləşdirir.

Xalqlarımızın qarşılıqlı səyləri və dövlətlərimizin birgə dəstəyi sayəsində son illərdə mədəni-humanitar əlaqələr uğurla inkişaf edir. Birgə keçirilən mədəniyyət günləri, incəsənət festivalları, elmi konfranslar, ədəbi nəşrlər və təhsil proqramları iki ölkə arasında mədəni və humanitar gündəliyin möhkəmlənməsində xüsusi rol oynayır.

2023-cü və 2025-ci illərdə Azərbaycan Özbəkistan Mədəniyyəti Günlərinə, 2024-cü ildə Özbəkistan Azərbaycan Mədəniyyəti Günlərinə evsahibliyi edib, həmin il Xivə şəhərində "Şuşa Günləri" keçirilib. Özbəkistandan gələn geniştərkibli nümayəndə heyəti Bakıda keçirilən birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsində iştirak edib.

Biz fəxr edirik ki, qardaş ölkəmizin ən qədim və nüfuzlu ali təhsil müəssisələrindən biri olan Özbəkistan Milli Pedaqoji Universiteti dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyır.

Keçən il əziz qardaşım Prezident Şavkat Miromonoviçlə birlikdə Bakının mərkəzində təməlini qoyduğumuz 5 hektar sahəsi olan "Özbəkistan" parkı qardaşlığımızın daha bir rəmzinə çevriləcək.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən təşəbbüslər və layihələr iki ölkə arasında mədəni və humanitar əməkdaşlığın genişləndirilməsində böyük əhəmiyyətə malikdir.

Təhsil sahəsində əməkdaşlıq Azərbaycan ilə Özbəkistan arasında mədəni-humanitar tərəfdaşlığın aparıcı sahələrindən biri kimi çıxış edir. 2025-2026-cı tədris ilində Özbəkistanın 67 vətəndaşı Azərbaycanda, Azərbaycanın 176 vətəndaşı isə Özbəkistanda təhsil alıb.

Özbəkistanın təşəbbüsü ilə inşa edilən və Füzuli şəhərində fəaliyyət göstərən Mirzə Uluqbəy adına orta məktəb təhsil sahəsində əməkdaşlığın ən parlaq nümunələrindən biridir və ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin daha bir təzahürüdür. Bu nəcib təşəbbüsə, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə bərpa və tikinti işlərinə göstərilən dəstəyə görə bütün Özbəkistan xalqına və şəxsən Prezident Şavkat Mirziyoyevə səmimi minnətdarlığımızı bildiririk.

Bundan əlavə, media sektorunda əməkdaşlıq mühüm nəticələrlə yadda qalıb. 2024-cü il sentyabrın 23-25-də Daşkənddə 1-ci Özbəkistan-Azərbaycan Media Forumu, 2025-ci il sentyabrın 29-da isə Bakıda 2-ci Azərbaycan-Özbəkistan Media Forumu keçirilib. 2023-cü ildə Füzulidə 1-ci Azərbaycan-Özbəkistan QHT Əməkdaşlıq Forumu, 2024-cü ildə isə Daşkənddə 2-ci Özbəkistan-Azərbaycan QHT Əməkdaşlıq Forumu təşkil olunub. Bu forumların praktik nəticəsi olaraq, 2026-cı ildə iki qardaş ölkə birlikdə ilk dəfə QHT-lər üçün qrant müsabiqəsi elan edib. Həmin müsabiqənin nəticələrinə əsasən, Azərbaycandan qalib layihələr Özbəkistanda, Özbəkistandan qalib layihələr isə Azərbaycanda həyata keçiriləcək.

Özbəkistandan Azərbaycana turist səfərlərində artım müşahidə olunur. Ölkəmizi 2024-cü ildə 46 min, 2025-ci ildə 62 min, 2026-cı ilin yanvar-avqust aylarında isə 44 min Özbəkistan vətəndaşı ziyarət edib.

Regionlararası əməkdaşlığın uğurlu inkişafını xüsusi qeyd etmək olar. Bakı-Daşkənd, İsmayıllı-Riştan, Şuşa-Xivə, Lənkəran-Buxara, Şəki-Kokənd, Biləsuvar-Termez, Mingəçevir-Namanqan, Füzuli-Gülüstan, Quba-Cizak və Beyləqan-Şəhrisəbz şəhərləri arasında qardaşlaşmış şəhər və tərəfdaşlıq münasibətləri qurulub. Naxçıvan və Ürgənc arasında yaxın vaxtlarda qardaşlaşmış şəhər münasibətlərinin qurulması planlaşdırılır. Bu gün xalqlarımızı daha da yaxınlaşdıran, ortaq tarixi, mədəni və mənəvi dəyərləri qoruyan, gələcək nəsillər arasında dostluğu və qarşılıqlı etimadı gücləndirən əməkdaşlıq üçün mühüm platformalardan biri olan Azərbaycan ilə Özbəkistan arasında qardaşlaşmış şəhər təşəbbüsləri xüsusilə əhəmiyyətlidir.

Beləliklə, Azərbaycan ilə Özbəkistan arasında mədəni-humanitar əməkdaşlıq təkcə ikitərəfli münasibətlərin vacib sahəsi deyil, həm də ortaq dəyərlərimizi, zəngin mədəni irsimizi və xalqlarımız arasındakı qardaşlıq bağlarını qoruyan gələcəyə yönəlmiş strateji humanitar körpüdür.

***- Hörmətli cənab Prezident, Azərbaycan və Özbəkistan beynəlxalq platformalarda da səmərəli əməkdaşlıq edir. Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində bu əməkdaşlığı necə qiymətləndirirsiniz və Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın inkişaf perspektivləri barədə nə deyə bilərsiniz?***

- Ölkələrimizin həm ikitərəfli, həm də çoxtərəfli formatlarda mühüm məsələlərin həlli üzrə birgə səyləri yüksək qiymətə layiqdir. İki qardaş ölkənin - Azərbaycanın və Özbəkistanın bütün məsələlərdə bir-birini daim dəstəkləməsi faktı qürur hissi doğurur.

Azərbaycan ilə Özbəkistan arasında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir. Ötən il Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirildi. Təşkilat çərçivəsində əməkdaşlığa dair əsas məsələlər müzakirə edildi və TDT-nin möhkəmləndirilməsi, türk dünyasında daha sıx birliyin təmin edilməsi, onun siyasi, iqtisadi və hərbi gücünün artırılması, həmçinin qlobal arenada təsir və güc mərkəzinə çevrilməsi məqsədilə bəyannamələr imzalandı.

Azərbaycan və Özbəkistan TDT-ni təkcə dövlətlərarası əməkdaşlıq platforması kimi deyil, həm də ortaq tariximizi, mədəniyyətimizi və mənəvi dəyərlərimizi gələcəyə daşıyan mühüm birlik kimi dəyərləndirir.

Azərbaycanın və Özbəkistanın TDT daxilində siyasi dialoqun, iqtisadi əlaqələrin, nəqliyyat və logistika imkanlarının, təhsil, elm və mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişafına verdikləri töhfə türk dövlətləri arasında inteqrasiyanın daha da dərinləşməsinə xidmət edir.

Əməkdaşlığımız, xüsusən də nəqliyyat və logistika sahəsində qarşılıqlı fəaliyyətimiz böyük perspektivlər vəd edir. Azərbaycanın Cənubi Qafqazda, Özbəkistanın isə Mərkəzi Asiyada mövqeyi ölkələrimizi Şərqlə Qərbi birləşdirən mühüm strateji marşrutlarda təbii tərəfdaşlara çevirir. Bu baxımdan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin Orta dəhliz və TRIPP ilə inteqrasiyası bütün region üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq.

Azərbaycan ilə Özbəkistanın ortaq türk irsinin qorunması və təşviqi istiqamətində həyata keçirdikləri təşəbbüslər bu böyük mənəvi irsin gələcək nəsillərə ötürülməsi baxımından misilsiz əhəmiyyətə malikdir.

Ölkələrimiz digər türk təşkilatları çərçivəsində əməkdaşlığa da böyük əhəmiyyət verir. Özbəkistanın 2025-ci ilin may ayında Türk Mədəniyyəti və İrsi Fondunun tamhüquqlu üzvü qəbul edilməsi əhəmiyyətli və dərin məmnunluq doğuran hadisə oldu. Zəngin tarixi irsə, qədim dövlətçilik ənənələrinə və özünəməxsus mədəni dəyərlərə malik Özbəkistanın bu fonda qoşulması türk dünyasının ortaq irsinin qorunması və təşviqi sahəsində əməkdaşlıq imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək.

Beləliklə, ölkələrimizin TDT, həmçinin digər türk təşkilatları çərçivəsində fəal əməkdaşlığı türk dünyasının daha sıx inteqrasiyasına və beynəlxalq arenada vahid mövqeyinin möhkəmlənməsinə töhfə verməyə davam edəcək.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətlərinə gəldikdə qeyd etmək lazımdır ki, son illərdə bu əlaqələr müttəfiqlik, strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında dinamik şəkildə inkişaf edib. Tarixi və mədəni yaxınlıq, ortaq mənəvi dəyərlər kimi mühüm amillər Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında mövcud əlaqələrin möhkəm təməlini təşkil edir.

Azərbaycan Mərkəzi Asiya ölkələri ilə siyasi dialoqun genişləndirilməsinə, iqtisadi əlaqələrin dərinləşdirilməsinə, nəqliyyat və kommunikasiya imkanlarının artırılmasına, həmçinin enerji və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir. Bu baxımdan Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşləri regional əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi və birgə təşəbbüslərin müzakirəsi üçün çox vacib nüfuzlu platformalardan biridir.

Keçən ilin noyabrında Daşkənddə Özbəkistanın sədrliyi ilə keçirilən 7-ci Məşvərət Görüşündə Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində tamhüquqlu iştirakı ilə bağlı qərar qəbul edildi. Bu prosesdə göstərdikləri dəstəyə görə Özbəkistan Respublikasının Prezidentinə, həmçinin Mərkəzi Asiyanın digər dövlət başçılarına bir daha səmimi təşəkkürümü bildirirəm.

Azərbaycanın bu prosesə fəal qoşulması nəticəsində əvvəllər "C5" adlanan əməkdaşlıq formatı faktiki olaraq "C6" formatına çevrilib, regional dialoq və strateji tərəfdaşlıq isə yeni məzmun və miqyas qazanıb.

Azərbaycanın bu formatda tamhüquqlu iştirakı ölkəmizin Mərkəzi Asiya ilə münasibətlərə verdiyi strateji əhəmiyyəti nümayiş etdirir. Məşvərət görüşləri çərçivəsində aparılan diskussiyalar region ölkələri arasında qarşılıqlı etimadı daha da gücləndirməyə, yeni əməkdaşlıq sahələrini müəyyənləşdirməyə və regional inkişaf naminə mühüm təşəbbüsləri həyata keçirməyə imkan verir.

Həmçinin Azərbaycanın bu formatda iştirakı ölkəmizin regionlararası əməkdaşlığın möhkəmlənməsinə verdiyi töhfənin göstəricisidir. Bu platforma çərçivəsində yaradılmış dialoq və əməkdaşlıq mexanizmləri təkcə dövlətlərarası münasibətlərin inkişafına deyil, həm də Avrasiya məkanında sülhün, sabitliyin və davamlı tərəqqinin təmin olunmasına xidmət edir.

Beləliklə, Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında formalaşan hərtərəfli əməkdaşlıq qarşılıqlı hörmət, etimad və ortaq maraqlar üzərində qurulmuş strateji tərəfdaşlığın nümunəsidir.

Azərbaycan və Özbəkistan, həmçinin üzv və iştirakçı olduqları bütün beynəlxalq təşkilatlarda və çoxtərəfli platformalarda, xüsusən də BMT, İƏT, TDT, İqtisadi Əməkdaşlıq Təşkilatı, AQEM və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlıq edir.

***- Hörmətli cənab Prezident, maraqlı və məzmunlu müsahibəyə görə Sizə təşəkkür edirəm. Özbəkistana dövlət səfəriniz ərəfəsində Siz qardaş xalqa nə arzu etmək istərdiniz?***

-Bu gözəl imkandan istifadə edərək, qardaş Özbəkistan xalqını ölkənin dövlət müstəqilliyinin qarşıdan gələn 35-ci ildönümü münasibətilə səmimi-qəlbdən təbrik etmək, dərin hörmətimi və ən xoş arzularımı çatdırmaq, sülh, əmin-amanlıq, tərəqqi və yeni-yeni nailiyyətlər arzulamaq istərdim.



## "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il iyunun 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2026-cı il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il iyunun 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2026-cı il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iqtisadi əməkdaşlığın inkişafı və dərinləşdirilməsinin əsas istiqamətləri haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il iyunun 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iqtisadi əməkdaşlığın inkişafı və dərinləşdirilməsinin əsas istiqamətləri haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2026-cı il*

## "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətin gömrük statistikası sahəsində əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il iyunun 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətin gömrük statistikası sahəsində əməkdaşlıq haqqında Protokol" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2026-cı il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il iyunun 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2026-cı il*

## MSK sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstanda səfərdədir

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasında səfərdədir.**

Bu barədə AZƏRTAC-a MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən məlumat verilib.

Qazaxıstan Mərkəzi Seçki Komissiyasının sədri Nurlan Abdirovun dəvətinə əsasən reallaşdırılan səfərin başlıca məqsədi avqustun 23-də bu ölkədə keçiriləcək növbədənkənar parlament seçkilərini beynəlxalq müşahidəçi qismində izləməkdir. MSK təmsilçilərinin səsvermə günündək ümumi hazırlıq prosesi və seçki komissiyalarının fəaliyyəti ilə tanış olması, habelə seçki günü paytaxt Astana şəhərində yerləşən məntəqələrdə səsvermə prosedurlarını müşahidə etməsi nəzərdə tutulur.

Nümayəndə heyəti avqustun 22-də Astanada keçiriləcək Türk Dövlətləri Təşkilatına üzv ölkələrin ali seçki qurumlarının Məşvərət Platformasının iclasında da iştirak edəcək. İclas zamanı seçki administrasiyaları arasında davamlı dialoq və əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişaf istiqamətləri, seçki idarəçiliyi sahəsində qabaqcıl təcrübələrin mübadiləsi, institusional əlaqələrin gücləndirilməsi və digər məsələlər müzakirə olunacaq.

Səfər çərçivəsində MSK sədrinin qazaxıstanlı həmkarı ilə yanaşı, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin seçki idarəetmə orqanlarının və seçkilərin müşahidəsinə qatılan beynəlxalq təşkilatların rəhbərləri, həmçinin digər rəsmi şəxslərlə görüşləri də planlaşdırılır. Görüşlərdə qurumlararası əlaqələrin daha da dərinləşdirilməsi perspektivləri, seçkilərlə bağlı müxtəlif sahələr üzrə yeni əməkdaşlıq imkanları və qarşılıqlı maraq doğuran məsələlər müzakirə ediləcək.

Qeyd edək ki, MSK-nın təmsilçiləri Qazaxıstan Respublikasında keçirilən növbədənkənar parlament seçkilərini Türk Dövlətləri Təşkilatı, Türk Dövlətləri Parlament Assambleyası, ATƏT/DTİHB və Müstəqil Dövlətlər Birliyinin beynəlxalq müşahidə missiyalarının tərkibində də izləyirlər.

# Azərbaycan-Özbəkistan münasibətləri ortaq tarixə və strateji tərəfdaşlığa əsaslanır

**Azərbaycan öz suverenliyini, təhlükəsizliyini və milli maraqlarını tam təmin etməklə yanaşı, həm də regional və qlobal miqyasda mühüm siyasi xətt yürüdür. Bütün ölkələrlə qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsipinə əsaslanan bu siyasi kurs xüsusilə Vətən müharibəsindən sonra Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqların əsas hərəkətverici qüvvəsinə çevrilib.**



Ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə reallaşan irimiqyaslı energetika, nəqliyyat və logistika layihələri təkcə Avrasiya məkanında təhlükəsizliyə töhfə vermir, həm də geniş coğrafiyada iqtisadi inteqrasiyanı sürətləndirir.

Dövlətimizin xarici siyasətində tarixi, mədəni və strateji baxımdan yaxın olan regionlarla əlaqələrin yeni müstəviyə qaldırılması prioritet təşkil edir. Bu uğurlu xarici siyasət kursunda Mərkəzi Asiya ölkələri ilə münasibətlərin inkişafı mühüm yer tutur. Regionun sürətlə inkişaf edən dövlətlərindən olan Özbəkistan ilə əlaqələr də bu baxımdan böyük əhəmiyyətə malikdir. Azərbaycan və Özbəkistan arasında diplomatik münasibətlər 1995-ci il oktyabrın 2-də qurulsa da, xalqlarımızı əsrlər boyu davam edən sarsılmaz dostluq və qardaşlıq telləri bağlayır. Ortaq tarixi, dini, mədəniyyəti və eyni soy-kökü bölüşən hər iki xalqın münasibətləri qədim dövrlərə gedib çıxır.

İki xalq arasında qardaşlıq münasibətləri sovet dövründə də davam edib. 1930-cu illərin kütləvi repressiyaları zamanı on minlərlə azərbaycanlı Özbəkistanda sığınacaq tapıb. 1966-cı ilin zəlzələsindən sonra azərbaycanlılar Daşkəndin bərpasında da fəal iştirak ediblər. Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsində xalqlarımız arasındakı bu mənəvi bağları belə qiymətləndirib: "İki qardaş ölkə - Azərbaycan və Özbəkistan arasında münasibətlər ortaq tarixə, mədəniyyətə, dil və mənəvi dəyərlərə, həmçinin birliyə, həmrəyliyə və xalqlarımızın əsrlərlə davam etdiriyi, nəsildən-nəslə ötürdüyü dərin qarşılıqlı rəğbətə əsaslanır. Bu möhkəm bünövrə üzərində qurulan dövlətlərarası münasibətlər son illər misli görünməmiş inkişaf mərhələsinə qədəm qoyub, ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə yüksəlib və tamamilə yeni məzmun qazanıb".

Müstəqillik illərində ikitərəfli əlaqələrin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olub. Ulu Öndərin özbək liderlərlə səmimi dostluğu münasibətlərin təməlini qoyub. Bu strateji xətt Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində keyfiyyətcə yeni müstəviyə daşınıb. İki ölkə liderinin şəxsi dostluğu və qarşılıqlı etimadı dövlətlərarası əlaqələrin sürətli inkişafında həlledici rol oynayır. Dövlətimizin başçısı bu xüsusa da diqqət çəkib: "Özbəkistan Respublikasının Prezidenti, əziz qardaşım, hörmətli Şavkat Miromonoviç Mirziyoyev ilə mənim aramda möhcud olan səmimi dostluq, qarşılıqlı hörmət və etimad Azərbaycan-Özbəkistan qardaşlığının möhkəmlənməsində, dövlətlərarası əlaqələrin hazırkı səviyyəyə qaldırılmasında və müttəfiqliyimizin inkişafında xüsusi rol oynayır".

Liderlərin intensiv qarşılıqlı səfərləri münasibətlərin inkişafında mühüm rol oynayıb. Son illərdə imzalanan "Strateji tərəfdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə" və "Müttəfiqlik münasibətləri haqqında Müqavilə" ikitərəfli əlaqələrin hüquqi bazasını daha da möhkəmləndirib. Həmçinin təsis edilən Ali Dövlətlərarası Şura strateji tərəfdaşlığın dərinləşdirilməsi üçün mühüm institusional mexanizmə çevrilib. Özbəkistan keçmiş Qarabağ münaqişəsində hər zaman Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib. Qardaş ölkə tərəfindən Füzuli şəhərində inşa edilən Mirzə Uluqbəy adına tam orta məktəb və "Dostluq bağı" bu dəstəyin və sarsılmaz birliyin parlaq rəmzləridir.

Qarşılıqlı etimad iqtisadi və ticari sahədə də əksini tapır. İkitərəfli ticarət dövriyyəsi sürətlə artır. 500 milyon dollar kapitalla yaradılan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti fəal layihələr həyata keçirir. Avtomobil sənayesi, energetika, "yaşıl enerji" və nəqliyyat-logistika sahələrində sıx əməkdaşlıq mövcuddur. İki ölkənin coğrafi mövqeyi Şərqlə Qərbi birləşdirən Orta dəhliz çərçivəsində yükdaşımaların həcmini artırmağa imkan verir. Prezident İlham Əliyev müsahibəsində iqtisadi əlaqələrin inkişaf tempini belə ifadə edib: "İqtisadi-ticari əməkdaşlığımız son illərdə sürətli inkişaf dinamikası nümayiş etdirir. Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsi 2025-ci ildə əvvəlki ilə müqayisədə üç dəfədən çox artıb və 795 milyon dollar təşkil edib. Bu, əla göstəricidir. Bundan əlavə, 2026-cı ilin yanvar-may aylarında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollara çatıb".

Çoxtərəfli diplomatiya müstəvisində, xüsusilə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində Azərbaycan və Özbəkistanın əməkdaşlığı müstəsna əhəmiyyət kəsb edir. Hər iki dövlət TDT-ni türk dünyasının siyasi, iqtisadi və mənəvi gücünü artıran mühüm birlik kimi qiymətləndirir. Eyni zamanda Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində tamhüquqlu iştirakı ilə "C5" formatının "C6" formatına çevrilməsi regionlararası inteqrasiyanı yeni səviyyəyə qaldırır. Dövlətimizin başçısı iki ölkənin TDT çərçivəsində əməkdaşlığına toxunaraq qeyd edib: "Azərbaycan ilə Özbəkistan arasında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir. Ötən il Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirildi. Təşkilat çərçivəsində əməkdaşlığa dair əsas məsələlər müzakirə edildi və TDT-nin möhkəmləndirilməsi, türk dünyasında daha sıx birliyin təmin edilməsi, onun siyasi, iqtisadi və hərbi gücünün artırılması, həmçinin qlobal arenada təsir və güc mərkəzinə çevrilməsi məqsədilə bəyannamələr imzalandı". Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan və Özbəkistan TDT-də təkcə dövlətlərarası əməkdaşlıq platforması kimi deyil, həm də ortaq tariximizi, mədəniyyətimizi və mənəvi dəyərlərimizi gələcəyə daşıyan mühüm birlik kimi dəyərləndirir.

İkitərəfli münasibətlərin vacib elementlərindən biri də hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsidir. İki ölkənin müdafiə nazirlikləri arasında imzalanan fəaliyyət planlarına uyğun olaraq keçirilən birgə taktiki təlimlər, müdafiə sənayesi sahəsində təcrübə mübadiləsi və hərbçilərin peşəkarlığının artırılmasına yönəlmiş addımlar regional təhlükəsizliyin və sabitliyin təmin olunmasında müstəsna rol oynayır.

Dövlətlərarası inteqrasiyanı tamamlayan mühüm amillər arasında mədəni-humanitar sahələrdə əməkdaşlıq da önəmli rol oynayır. Daşkənddə fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi, mütəmadi təşkil olunan Mədəniyyət Günləri, media forumları və ali təhsil müəssisələri arasındakı birbaşa əməkdaşlıq xalqlarımızın bir-birini daha yaxından tanımasına, gənc nəsillər arasında mənəvi körpülərin sarsılmaz olmasına xidmət edir.

Nəticə etibarı ilə Azərbaycan-Özbəkistan münasibətləri ortaq köklərə, qarşılıqlı hörmətə və strateji müttəfiqliyə söykənərək yüksələn xətlə inkişaf edir. Dövlətlərimiz arasında imzalanmış çoxsaylı sənədlər və iki ölkə liderinin siyasi iradəsi bu əməkdaşlığı daha sarsılmaz edir. Əsrlərdən gələn bu dostluq və qardaşlıq münasibətləri bundan sonra da möhkəmlənərək həm xalqlarımızın rifahına, həm də bütün türk dünyasının güclənməsinə xidmət edəcək.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Xankəndi, Xocalı və Ağdərə növbəti sakinlərini qarşıladı

**Bu gün Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan şəhər və kəndlərimiz bütün bir xalqın qürurunu, kimliyini və tarixi yaddaşını yenidən dirçəldir. Böyük ağrılarla, tərk edilən o torpaqlara indi gülə-gülə, başı dik və qalib xalq kimi qayıdırıq. Bir zamanlar xəyal kimi görünən qayıdış köçləri indi Zəfər salnaməmizin ən parlaq səhifələrinə çevrilir.**





### "Hər dəfə keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdanda hamımız üçün bayramdır..."

Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda tamamilə yeni era başlayıb. Otuz ilə yaxın bir müddətdə işğal altında qalaraq viran edilən, daşıdaş üstündə qoyulmayan dədə-baba torpaqlarımız bu gün dövlətimizin qüdrəti və xalqımızın quruculuq əzmi ilə yenidən dirçəlir. Üç onillik boyunca ürəklərində vətən nisgili daşıyan, müvəqqəti məskunlaşma yerlərində çətinliklərə sinə gərən keçmiş məcburi köçkünlərin öz ocaqlarına təhlükəsiz, ləyaqətli qayıdışı artıq reallığa çevrilib.

"Hər dəfə keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdanda hamımız üçün bayramdır, bütün Azərbaycan xalqı üçün bayramdır. İndi elə ay olmur ki, qrup-qrup şəklində keçmiş köçkünlər öz doğma torpaqlarına qayıtmasın. Elə olur ki, hər həftə, hər ay, hər gün. Bundan sonra bu proses daha geniş vüsət alacaq", - deyə bu böyük tarixi prosesin mahiyyətini və xalqımızın keçirdiyi qürur hissini Prezident İlham Əliyev iyulun 11-də Xocavənd rayonunun Quzeyxırman və Güneyxırman kənd sakinləri ilə görüşündə çox dəqiq ifadə edib.

Dövlətimiz işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışı Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən edib. Bu mühüm qərar Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 16 noyabr 2022-ci il tarixli sərəncamında öz əksini tapıb.

10 min kvadratkilometr ərazidə aparılan böyük tikinti-quruculuq işlərinin sayəsində Qarabağ və Şərqi Zəngəzur başdan yaradılır, çoxsaylı yaşayış məntəqələri yenidən qurulur.

Böyük qayıdışın ilk müjdəçisi və təməl daşı Zəngilan rayonunun Ağalı kəndi oldu. "Ağıllı kənd" konsepti ilə sıfırdan inşa edilən Ağalıya köçən ilk sakinlərin sevinci xalqımıza bu torpaqlarda yeni həyatın başlandığını müjdələdi. Bu gün həmin uğurlu model azad edilmiş bütün ərazilərə şamil olunur.

Vətən müharibəsindən dərhal sonra Zəfər yolu ilə təməli qoyulan misilsiz quruculuq işləri sayəsində yurdlarımız qarış-qarış cənnətə çevrilir. Böyük qayıdış prosesi çərçivəsində təməli qoyulan layihələr artıq öz bəhrəsini verir. Respublikanın müxtəlif bölgələrində - yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələr mərhələli şəkildə öz doğma ocaqlarına qayıdırlar.

Avqustun 21-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə (8 ailə - 36 nəfər), Xocalı rayonunun Badara (5 ailə - 13 nəfər), Xanyurdu (4 ailə - 10 nəfər), Xanabad (8 ailə - 31 nəfər), Ballıca (3 ailə - 8 nəfər) və Təzəbinə (14 ailə - 71 nəfər) kəndlərinə, eləcə də Ağdərə rayonunun Kolatağ (12 ailə - 36 nəfər), Həsənriz (6 ailə - 30 nəfər), Aşağı Oratağ (12 ailə - 49 nəfər) və Çapar (15 ailə - 51 nəfər) kəndlərinə köçürülən sakinlər müasir və rahat evlərində yeni həyata qədəm qoydular.

### Dünya səviyyəli infrastruktur

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr göstərir ki, burada dünya səviyyəli infrastruktur qurulur.

Qısa müddətdə tikilib istifadəyə verilən Füzuli, eləcə də Zəngilan və Laçın beynəlxalq hava limanlarının regionu qlobal logistika və turizm xəritəsinə inteqrasiya edir. Murovdağ tuneli kimi mürəkkəb mühəndislik qurğuları və yüzlərlə kilometrlik müasir magistral yollar şəhər və kəndlərimiz arasında fasiləsiz əlaqə yaradır.

Qarabağ və Şərqi Zəngəzurun dünyanın yeni çağırışı olan "yaşıl enerji" potensialı olduqca yüksəkdir. Bölgənin zəngin su və günəş resursları əsasında inşa edilən çoxlu sayda su-elektrik stansiyaları regionun "sıfır emissiyalı" "yaşıl enerji" zonasına çevrilməsini təmin edir.

İşğaldan azad edilən ərazilərin simasını burada salınan müasir şəhər və kənd modeli daha aydın göstərir. Yeni yaşayış məntəqələri ən son rəqəmsal texnologiyalar və ekoloji standartlar əsasında qurulur, kommunal infrastruktur tam inteqrasiya olunmuş şəkildə istifadəyə verilir.

Lakin bu möhtəşəm quruculuq işlərinin və təhlükəsiz qayıdışın arxasında duran ən məsuliyyətli, eyni zamanda riskli mərhələ ərazilərin minalardan təmizlənməsidir. Ermənistanın 30 illik işğal dövründə basdırdığı bir milyondan çox mina bərpa işlərinin sürəti qarşısında böyük maneə yaratsa da, Azərbaycan dövləti sarsılmaz iradə nümayiş etdirərək torpaqlarımızı addım-addım təhlükəsiz zonaya çevirir.

Bu böyük dirçəliş prosesi mühəndislik və tikinti uğuru olmaqla yanaşı, həm də ilk növbədə ruhun, mədəniyyətin və insan həyatının öz əbədi ocağına qayıdışıdır. Bir zamanlar dağıdılmış məktəblərin həyətlərindən indi yenidən uşaq gülüşləri ucalır, yeni salınan küçələrdə, parklarda həyat qaynamağa başlayır. Şuşada, Laçında, Kəlbəcərdə, Xankəndidə... keçirilən mədəniyyət tədbirləri, festivallar bölgəyə mənəvi baxımdan da yenidən can verir. Hazırda bu torpaqlarda 90 mindən çox insanın yaşaması, çalışması və təhsil alması Böyük qayıdışın uğurla gerçəkləşməsindən xəbər verir.

Bütün bu tarixi qələbələrin, Qarabağ və Şərqi Zəngəzurun quruculuğunun memarı olan Müzəffər Ali Baş Komandan İlham Əliyevin şəxsi diqqəti və qayğısı sayəsində keçmiş məcburi köçkünlərin illər boyu çəkdiyi əzablar unudulur, yerini sarsılmaz güvən və xoşbəxtliyə verir.

Azad edilən torpaqlarımız cənnətməkana çevrilir, bu müqəddəs yurdlara əbədi dinclik və həyat qayıdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# 907-ci düzəlişin hüquqi ləğvi labüddür

## Yeni reallıqlar bu köhnə və ədalətsiz qərarın tamamilə aradan qaldırılmasını şərtləndirir

**Vaşinqtonla Bakı arasında strateji tərəfdaşlıq fonunda ABŞ Dövlət Departamentinin 907-ci düzəlişin tətbiqini donduran rəsmi bildirişi Konqresə təqdim etməsi mühüm hadisə kimi dəyərləndirilir. Bu addım Prezident Donald Tramp administrasiyasının Azərbaycanla ikitərəfli əlaqələri genişləndirmək və əməkdaşlığı dərinləşdirmək əzmini göstərir. Lakin Cənubi Qafqazda tamamilə yeni reallıqların formalaşdığı, davamlı sülhün təməllərinin atıldığı bir dövrdə 1992-ci ilin müharibə təfəkküründən qalma bu ədalətsiz düzəlişi, sadəcə, dondurmaq kifayət etmir. Müasir reallıqlar bədnam düzəlişin ölkə qanunvericiliyindən birdəfəlik silinməsini şərtləndirir.**



Xatırlatmaq yerinə düşər ki, bu lazımsız qanunvericilik aktı 1992-ci ildə Qarabağ münaqişəsinin tam fərqli geosiyasi mənzərəsi fonunda, ermənipərəst konqresmenlərin və erməni diasporunun təsiri ilə qəbul olunmuşdu. Həmin dövrdə Ermənistan Azərbaycan ərazilərini işğal etmiş, Qərbi Azərbaycandan və Qarabağdan yüz minlərlə soydaşımız öz doğma yurdlarından qovulmuş, ölkəmiz qaçqın və məcburi köçkün axını ilə üz-üzə qalmışdı. Lakin regiondakı həqiqətləri təhrif edən Konqres erməni lobbisinin təsiri ilə və tamamilə ikili standartlara söykənərək, absurd bəhanələrlə Azərbaycanı günahlandırmışdı. Beləliklə, Azərbaycan keçmiş sovet respublikaları arasında ABŞ Konqresinin bu cür aşkar ayrı-seçkiliyinə və məhdudiyyətlərinə məruz qalan yeganə ölkə olmuşdu.

Bu gün Cənubi Qafqazda şərtləri Azərbaycanın tarixi Zəfəri ilə müəyyənləşən tamamilə yeni reallıqlar mövcuddur. Ölkəmiz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə yanaşı, regionda davamlı sülhün və əməkdaşlığın əsas memarına çevrilib. 2025-ci ilin avqustun 8-də Ağ Evdə Prezident Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətninin paraflanması, Bakının birtərəfli qaydada bütün tranzit məhdudiyyətlərini aradan qaldırması bunun əyani sübutudur. Azərbaycan bu gün Ermənistana Rusiya və Qazaxıstandan müxtəlif yüklərin daşınmasına şərait yaradır, eyni zamanda bu ölkəni neft məhsulları ilə təchiz edir. Bütün bunlar, eləcə də TRIPP marşrutu adlanan Zəngəzur dəhlizinin icrası prosesinə başlanması 30 il öncənin ədalətsiz qərarının birdəfəlik ləğvini labüd edir.

Prezident İlham Əliyev bu məsələdə dövlətimizin prinsipial mövqeyini dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Dövlətimizin başçısı IV Şuşa Qlobal Media Forumunda çıxışı zamanı bildirmişdi ki, bu qərar 1992-ci ildə ABŞ Konqresinin Azərbaycana münasibətdə çox ədalətsiz addımı idi: "O vaxt, Sovet İttifaqının süqutundan sonra yeni yaranan ölkələrə maliyyə yardımı formasında dəstəyin verilməsi üçün ABŞ Konqresi "Azadlığa Dəstək Aktı"nı qəbul etdi və 907-ci düzəliş ermənipərəst senatorlar tərəfindən irəli sürülmüşdür. Yeri gəlmişkən, Prezident Bayden onlardan biri idi".

Azərbaycan Prezidenti həmin düzəlişin artıq tamamilə köhnəldiyini bəyan edib: "Birincisi, Azərbaycan ilə Ermənistan arasında Prezident Trampın iştirakı ilə Ağ Evdə sülh sazişi paraflandı. İkincisi, Azərbaycan birtərəfli olaraq Ermənistana bütün tranzit məhdudiyyətlərini aradan qaldırdı və hazırda biz bunu etməklə 40 min tondan artıq müxtəlif yüklər Rusiya, Qazaxıstan və digər yerlərdən Ermənistana daşındı. Bundan əlavə, Azərbaycan özü Ermənistana neft məhsullarını təchiz etməyə başlayıb və bildiyimə görə artıq 10 min tondan çoxdur. Bu, xüsusən də indi - bir çox ölkələrin yanacağa çıxışdan əziyyət çəkdiyi dövrdə baş verir və Ermənistan Azərbaycanı etibarlı mənbə kimi görür. Əgər belə olmasaydı, ola bilsin, bu gün onlar bütün dünyada benzin və dizel yanacağı axtarmalı olacaqdılar. Bir sözlə, bütün bunlar göstərir ki, həmin düzəliş tamamilə köhnəlib və tam ləğv edilməlidir".

Əsassız arqumentlərə söykənən 907-ci düzəlişin saxlanılması artıq heç bir siyasi-hüquqi məntiqə sığmır. Regionda bərqərar olan sülh mühiti və Azərbaycanın irəli sürdüyü regional əməkdaşlıq təşəbbüsləri ABŞ-nin Cənubi Qafqaz prioritetləri ilə üst-üstə düşür. İki ölkə arasındakı qarşılıqlı etimadı daha da dərinləşdirmək üçün qeyri-obyektiv hüquqi maneələrin aradan qaldırılması tarixi zərurətdir.

Nəzərə alınmalıdır ki, Bakı və Vaşinqton arasında münasibətlər keyfiyyətcə yeni müstəviyə yüksələrək strateji tərəfdaşlıq xarakteri alıb. Prezident İlham Əliyev və ABŞ vitse-prezidenti Ceyms Devid Vens tərəfindən Bakıda imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası iki dövlət arasında uzunmüddətli iqtisadi, təhlükəsizlik və siyasi əlaqələrin möhkəm təməlini qoyub. Bədnam düzəlişin tamamilə ləğvi iki ölkə arasında hərbi-texniki əməkdaşlığın önündəki sonuncu psixoloji və hüquqi səddi də götürə bilər.

ABŞ Konqresində respublikaçıların üstünlük təşkil etməsi Tramp administrasiyasına bu köhnəlmiş və zərərli düzəlişi tarixin arxivinə göndərmək üçün unikal fürsət yaradır. Hazırda rəsmi Bakı ilə Vaşinqtonu birləşdirən ortaq maraqlar və strateji hədəflər hər hansı lobbi qrupunun siyasi maraqlarından üstündür. ABŞ qanunvericilərinin bu tarixi ədalətsizliyə son qoyaraq 907-ci düzəlişi tamamilə ləğv etməsi yalnız Azərbaycan üçün deyil, eləcə də Vaşinqtonun regional maraqlarının, nüfuzunun və Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olmasının xeyrinə olacaq.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# Azərbaycan terrorun acı nəticələri ilə üzləşmiş ölkədir






**Hər il avqustun 21-i dünyada Beynəlxalq Terror Qurbanlarını Anma Günü kimi qeyd olunur. BMT-nin təşəbbüsü ilə təsis edilən bu gün terror aktlarının qurbanlarına dəstək olmaq, onların hüquqlarını qorumaq və cəmiyyətin diqqətini bu qlobal problemə yönəltmək məqsədi daşıyır. Terrorizmin əsl hədəfi ayrı-ayrı fərdlər yox, bütövlükdə bəşəriyyətdir. Hər il minlərlə günahsız insan nifrət və zorakılıq ideologiyalarının qurbanına çevrilir. Ən acınacaqlısı odur ki, qanlı hücumlar sona çatsa belə, zərərçəkənlər cəmiyyətlə təkbətək qalır və uzunmüddətli travmaların ağrıları ilə təkbaşına mübarizə aparmalı olurlar.**

Son illərdə aparılan beynəlxalq tədqiqatlardan və BMT-nin statistikalarından aydın olur ki, terror aktları, sadəcə, insan həyatına son qoymur, cəmiyyətlərin iqtisadi və sosial strukturunu kökündən dağıdır. BMT-nin rəsmi hesabatlarına əsasən, terrorizmin qurbanları çox vaxt illərlə sağalmayan dərin psixoloji yaralarla yaşamağa məcbur qalırlar. Qlobal miqyasda terror hadisələrinin fəsadları həm də ölkələrin iqtisadiyyatına ciddi zərbə vurur, milyonlarla insanın qaçqın və məcburi köçkünə çevrilməsinə səbəb olur.

Terror aktlarından sağ qurtulan insanlar dərin fiziki, psixoloji və sosial travmalar yaşayırlar. Ancaq bir çox dövlətin bu insanların ehtiyaclarını qarşılamaq üçün kifayət qədər resursu və ya ixtisaslaşmış infrastrukturu yoxdur. Qurbanların cəmiyyətə yenidən inteqrasiyası və normal həyata qayıtması üçün uzunmüddətli, hərtərəfli dəstəyə böyük ehtiyacı var. Çox vaxt insanlar cəmiyyətin unutqanlığı və laqeydliyi ilə üzləşirlər ki, bu da mövcud travmaları daha da dərinləşdirir. Bu istiqamətdə əsas məsuliyyət isə üzv dövlətlərin üzərinə düşür: dövlətlər qurbanların pozulmuş hüquqlarını qorumalı və onlar üçün çoxsahəli yardım planları hazırlamalıdırlar. Beynəlxalq təşkilatlar xüsusilə vurğulayırlar ki, sosial reabilitasiya mərkəzlərinin yaradılması və maliyyə dəstəyi sistemlərinin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Xatırladaq ki, BMT Baş Assambleyası 2017-ci ildə 72/165 saylı qətnaməni qəbul edərək avqustun 21-ni rəsmi olaraq anım günü elan edib. 2023-cü ildə qəbul edilən səkkizinci icmal qətnaməsi isə qadınların, uşaqların və gender zorakılığına məruz qalanların hüquqlarına xüsusi diqqət yetirilməsini tələb edir. 2026-cı ildə bu gün "Yaddaş vasitəsilə Şəfa" şüarı altında qeyd olunur. İtirilmiş insanları hörmətlə yad etmək və onların hekayələrini yaşatmaq cəmiyyətdə ümid hissi yaradır. Eyni zamanda xatirə tədbirlərinin rəqəmsal aləmdə də qurbanlara həssas və travmadan qoruyan şəkildə həyata keçirilməsi böyük önəm daşıyır. Məhz bu məqsədlə Terror Qurbanları Assosiasiyaları Şəbəkəsi kimi qurumlar qurbanları onlayn məkandakı zərərlərdən, kiberzorakılıqdan və təqiblərdən qorumaq üçün yeni təşəbbüslər irəli sürürlər.

Azərbaycan da illər boyu terrorizmin acı nəticələri ilə üzləşmiş dövlətlərdəndir. Ölkəmiz xarici təcavüz, terror təşkilatlarının törətdiyi partlayışlar və hərbi təxribatlar nəticəsində çoxsaylı dinc sakinlərini və hərbçilərini itirib. 1990-cı illərdə Bakı metropolitenində ("20 Yanvar" və "Gənclik" stansiyalarında baş verən partlayışlar), sərnişin avtobuslarında və qatarlarda törədilən qanlı terror aktları nəticəsində yüzlərlə günahsız insan həlak olub və yaralanıb. Daha sonra, 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Gəncə, Bərdə, Tərtər və digər cəbhəboyu zonada yerləşən şəhərlərimizin dinc sakinləri uzaqmənzilli raketlərlə hədəfə alınıb, nəticədə azyaşlı uşaqlar, qadınlar və qocalar həyatlarını itiriblər. Statistikaya görə, Ermənistanın həmin dövrdə törətdiyi hərbi cinayətlər və raket hücumları nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olub, 454 mülki vətəndaş yaralanıb, 13360 yaşayış və qeyri-yaşayış sahəsinə, 346 nəqliyyat vasitəsinə ziyan dəyib. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərdə kütləvi şəkildə basdırılmış və dəqiq xəritələri verilməyən minalar bu gün də insan həyatını hədəf alan davamlı terror forması olaraq qalmaqdadır.

Bütün bunlarla yanaşı, Azərbaycan terrorizmin bütün formalarına və təzahürlərinə qarşı qətiyyətlə mübarizə aparır, qlobal təhlükəsizlik təşəbbüslərini dəstəkləyir və terror qurbanlarının hüquqlarının qorunmasının qəti tərəfdarıdır. Ölkəmiz beynəlxalq terrorizmlə mübarizə çərçivəsində BMT, İnterpol və digər strukturlarla fəal əməkdaşlıq edərək regional sabitliyin qorunmasına mühüm töhfələr verir.

Qeyd edək ki, terrora qarşı mübarizə, sadəcə, hərbi və ya hüquqi tədbirlərdən ibarət olmur. Bu, həm də ədalətin bərqərar olması, qurbanların yaralarının sarılması və bəşəriyyətin sülh içində yaşamasını təmin etmək üçün ümumi bir səydir. Xatirələri yaşatmaq isə gələcəkdə belə faciələrin təkrarlanmaması üçün ən güclü vasitədir.

*Təhminə VERDİYEVA, "Azərbaycan"*

# Bakıda Belçikanın müstəmləkəçilik irsinə dair beynəlxalq konfrans keçirilib

**Bakıda "Belçika müstəmləkəçiliyinin ədalətsizlikləri və təzminat mübarizəsinin 101 ili" mövzusunda beynəlxalq konfrans keçirilib.**




AZƏRTAC xəbər verir ki, Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən tədbirdə Konqo Demokratik Respublikası (KDR), Ruanda və Burundi, eləcə də Mərakeş və Cənubi Afrika Respublikasından nümayəndələr, BMT-nin İnsan Hüquqları Şurasının ekspertləri, diplomatlar, parlament üzvləri, hüquq müdafiəçiləri, tarixçilər və beynəlxalq hüquq üzrə mütəxəssislər iştirak ediblər.

Konfransda Belçikanın müstəmləkəçilik siyasətinin Mərkəzi Afrika xalqlarına vurduğu tarixi, siyasi, iqtisadi və sosial zərər, müstəmləkəçilik irsinin bu gün də davam edən təsirləri, tarixi ədalətin bərpası, reparasiya və mədəni irsin restitusiya məsələləri müzakirə olunub.

Tədbirdə çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, müstəmləkəçilik dövründə törədilmiş cinayətlərin nəticələrinin aradan qaldırılması yalnız maliyyə kompensasiyası ilə məhdudlaşmamalıdır. İlk növbədə, tarixi məsuliyyət dövlət səviyyəsində tanınmalı, zərər çəkmiş xalqlardan rəsmi üzr istənilməli, təzminat mexanizmləri müəyyənləşdirilməli və gələcəkdə oxşar halların təkrarlanmaması üçün hüquqi təminatlar yaradılmalıdır.

A.Abbasov qeyd edib ki, KDR, Ruanda və Burundi uzun illərdir Belçikanın müstəmləkəçilik siyasətinin nəticələrinin aradan qaldırılması ilə bağlı konkret addımlar gözləyirlər. O vurğulayıb ki, reparasiya məsələsi beynəlxalq hüquqi müstəvidə müzakirə olunmalı və bu proses mərhələli, şəffaf və konkret mexanizmlər əsasında həyata keçirilməlidir.

KDR-in Milli İnsan Hüquqları Komissiyasının Prezidenti, ombudsman Paul Nsapu Mukulu bildirib ki, Belçikanın Afrikadakı müstəmləkəçilik tarixinin obyektiv şəkildə araşdırılması tarixi ədalətin bərpası üçün əsas şərtlərdən biridir. Onun sözlərinə görə, xüsusilə KDR, Ruanda və Burundi xalqlarının yaşadığı tarixi hadisələr uzun müddət birtərəfli təqdim edilib. P.N.Mukulu vurğulayıb ki, həmin dövrdə törədilmiş cinayətlər və insan hüquqları pozuntuları barədə həqiqətin üzə çıxarılması qurbanların ədalətə çıxışını təmin etməklə yanaşı, gələcəkdə oxşar halların qarşısının alınmasına da xidmət edə bilər.

KDR-in Milli Assambleyasının deputatı, "İlk öncə xalq" partiyasının üzvü Fransis Tşibalabala Mukunayi çıxışında qeyd edib ki, 101 il sonra müstəmləkəçilik irsinə qayıtmaq keçmişi yenidən yazmaq deyil, tarixi həqiqəti qəbul etmək məqsədi daşıyır. O bildirib ki, müstəmləkəçilik resursların istismarı, məcburi əmək, ayrı-seçkilik, təzyiq, mədəni irsin mənimsənilməsi və müxtəlif sosial problemlərlə müşayiət olunub. Bununla yanaşı, KDR xalqının bütün bu çətinliklərə baxmayaraq, 1960-cı il iyunun 30-da müstəqilliyini əldə etməsi onun həm də müqavimət və ləyaqət tarixidir. F.T.Mukunayın sözlərinə görə, kompensasiya tələbi intiqam kimi deyil, ədalətin, tarixi məsuliyyətin tanınmasının və barışığın təmin edilməsinə xidmət edən mexanizm kimi qiymətləndirilməlidir.

İqamətgahı Ankarada olmaqla Ruanda Respublikasının Türkiyə, Azərbaycan, Qazaxıstan və Livandakı səfiri Çarlz Kayonqa isə çıxışında müstəmləkəçiliyin yalnız ərazilərin işğalı ilə məhdudlaşmadığını, eyni zamanda həmin cəmiyyətlərin siyasi institutlarını, sosial münasibətlərini, iqtisadi strukturlarını və identiklik anlayışlarını formalaşdıran uzunmüddətli sistem yaratdığını diqqətə çatdırıb. O qeyd edib ki, müstəmləkəçilik formal olaraq başa çatdıqdan onilliklər sonra belə onun yaratdığı struktur və münasibətlərin təsirləri bir sıra keçmiş müstəmləkələrdə qalmaqda davam edir. Buna görə də məsuliyyət və reparasiya məsələlərinin müzakirəsi zamanı həmin tarixi strukturların dərindən araşdırılması vacibdir.

Konqo Demokratik Respublikasının UNESCO üzrə Milli Komissiyasında gənclər proqramı üzrə assistent Ester Kile Va Nqoy bildirib ki, Belçikanın müstəmləkəçilik siyasəti KDR-də həddindən artıq istismar, iqtisadi asılılıq və sosial parçalanma kimi ciddi nəticələr yaradıb. "Müstəmləkəçilik dövründə KDR-in təbii və mineral sərvətlərindən geniş istifadə olunub, yerli institutlar zəiflədilib, irqi ayrı-seçkilik və sosial bərabərsizlik dərinləşib", - deyə əlavə edib. O, Afrika xalqlarının mədəni və bədii irsinin Avropaya aparılmasını vurğulayaraq, bu irsin mənşə ölkələrinə qaytarılması istiqamətində daha geniş və şəffaf prosesin aparılmasının vacibliyini bildirib.

Konfrans iştirakçıları müstəmləkəçilik dövründə mədəni irsin mənimsənilməsi və onun mənşə ölkələrinə qaytarılması məsələsinə də xüsusi diqqət yetiriblər.

Qeyd edilib ki, Belçikanın Kral Mərkəzi Afrika Muzeyinin kolleksiyalarında Mərkəzi Afrikadan olan on minlərlə artefakt saxlanılır. Belçikanın rəsmi məlumatlarına görə, muzeydə Mərkəzi Afrikadan təxminən 85 min obyekt, ümumilikdə isə 128,5 min etnoqrafik obyekt və musiqi aləti mövcuddur.

Tədbirdə BMT Baş Assambleyasının 60/147 saylı Qətnaməsi ilə müəyyən edilmiş reparasiya prinsiplərinə də diqqət çəkilib. Qətnamədə reparasiyanın restitusiya, kompensasiya, reabilitasiya, satisfaksiya və pozuntuların təkrarlanmaması təminatlarını əhatə etdiyi göstərilir. Satisfaksiya çərçivəsində faktların müəyyənləşdirilməsi və həqiqətin ictimai şəkildə açıqlanması, uyğun hallarda rəsmi üzr və digər tanınma tədbirləri nəzərdə tutulur.

Konfransda səsləndirilən fikirlərdə xüsusi olaraq vurğulanıb ki, reparasiya yalnız maliyyə ödənişi kimi qəbul edilməməlidir. Tarixi həqiqətin tanınması, qurbanların ləyaqətinin bərpası, mədəni irsin qaytarılması, arxivlərə çıxış, reabilitasiya, institusional islahatlar və gələcəkdə oxşar pozuntuların təkrarlanmamasına dair təminatlar reparasiyanın daha geniş məzmununu təşkil edir.

Tədbirin yekununda müstəmləkəçilikdən zərər çəkmiş xalqların tarixi həqiqətlərinin beynəlxalq səviyyədə daha geniş tanıdılması, reparasiya məsələsinin beynəlxalq təşkilatların gündəliyində daha sistemli şəkildə müzakirə olunması, hüquqi mexanizmlərin gücləndirilməsi və tarixi ədalətin bərpasına yönəlmiş əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb.

İştirakçılar bildiriblər ki, tarixi ədalətin bərpası yalnız keçmişin qiymətləndirilməsi deyil, həm də gələcək nəsillər üçün daha ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşdırılması məsələsidir.

# "Belçika müstəmləkəçilik cinayətlərinə görə dövlət səviyyəsində üzr istəməli və təzminat ödəməlidir"

**"Belçikanın Mərkəzi Afrikadakı müstəmləkəçilik siyasətinin başa çatmasından uzun illər keçməsinə baxmayaraq, Konqo Demokratik Respublikası, Ruanda və Burundi hələ də tarixi ədalətin bərpası istiqamətində bu ölkədən konkret addımlar gözləyir".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında **Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas ABBASOV** bildirib.

O qeyd edib ki, müstəmləkəçilik dövründə törədilmiş cinayətlərin nəticələrinin aradan qaldırılması yalnız siyasi bəyanatlarla məhdudlaşmamalı, məsələ konkret hüquqi mexanizmlər və təzminat öhdəlikləri çərçivəsində həllini tapmalıdır.

"Artıq 1960-cı illərdən etibarən Mərkəzi Afrika ölkələri Belçikadan müstəmləkəçilik dövrünün ağır nəticələrinin aradan qaldırılması və kompensasiyaların ödənilməsi ilə bağlı konkret addımlar gözləyirlər. Düşünürəm ki, bu istiqamətdə hüquqi müstəvidə təzminat mexanizmləri müəyyənləşdirilməli və real addımlar atılmalıdır. Belçika dövlət səviyyəsində Konqo Demokratik Respublikasından, Ruandadan və Burundidən üzr istəməlidir. Bundan sonra müstəmləkəçilik dövründə həmin ölkələrə vurulmuş zərərə uyğun maliyyə təzminatlarının həcmi müəyyən edilməli və bu vəsait mərhələli şəkildə ödənilməlidir", - deyə o diqqətə çatdırıb.

A.Abbasovun sözlərinə görə, tarixi ədalətin təmin olunması yalnız keçmişdə törədilmiş cinayətlərə görə kompensasiya ödənilməsi ilə yekunlaşmamalıdır. Müstəmləkəçilikdən zərər çəkmiş dövlətlərin suverenliyinə və daxili siyasi proseslərinə hörmət göstərilməsi də bu prosesin əsas prinsiplərindən biri olmalıdır.

"Ən mühüm məsələlərdən biri də gələcəkdə bu ölkələrin daxili siyasi məsələlərinə Belçika tərəfindən hər hansı müdaxilənin yolverilməzliyinin təmin edilməsidir. Eyni zamanda müstəmləkəçilik dövründə törədilmiş cinayətlərin və oxşar halların bir daha təkrarlanmaması üçün hüquqi müstəvidə müvafiq razılaşmanın əldə olunmasını vacib hesab edirəm", - deyə o əlavə edib.

A.Abbasov bildirib ki, bu istiqamətdə hüquqi mexanizmlərin yaradılması, təzminat məsələsinin konkret çərçivəsinin müəyyənləşdirilməsi və müstəmləkəçilikdən zərər çəkmiş xalqların hüquqlarının təmin olunması tarixi ədalətin bərpası baxımından mühüm əhəmiyyət daşıyır.

# İqtisadiyyat və sosial həyat

## Gəncədə şəhid ailələri ilə görüş keçirilib



**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov torpaqlarımızın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin ailələri ilə görüşmüş və Şəhidlər xiyabanını ziyarət etmişdir.**

YAP şəhər təşkilatının, şəhər icra hakimiyyətinin əməkdaşlarının, bələdiyyə sədrlərinin və şəhid ailələri üzvlərinin iştirak etdikləri tədbirin iştirakçıları əvvəlcə Şəhidlər xiyabanında "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri düzmüş, şəhidlərin xatirəsinə ehtiramlarını bildirmişlər.

Görüşdə çıxış edən ŞİH-in başçısı Niyazi Bayramov ölkəmizdə şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən diqqət və qayğıdan danışaraq qeyd etmişdir ki, bu kateqoriyadan olan vətəndaşların sosial rifahının təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindən biridir və onlar daim diqqət mərkəzində saxlanılır.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev avqustun 17-də Dövlət Sərhəd Xidmətinin bir sıra hərbi qulluqçularının orden və medallarla təltif edilməsi haqqında sərəncam imzalayıb. Bildirilmişdir ki, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilənlər sırasında Gəncədən Nağıyev Əli Elşən oğlu və Muxtarov Sərxan İlqar oğlu da var. Ümumilikdə isə Gəncədən olan 65 şəhid hərbi qulluqçu müxtəlif illərdə ordenlərlə təltif edilmişlər.

Görüşdə şəhid ailələrinin üzvləri çıxış edərək onlara göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Yeni əsasnamə kiçik və orta biznesə yeni imkanlar verəcək

**Prezident İlham Əliyev avqustun 20-də İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin (KOBİA) Əsasnaməsinin təsdiq edilməsi barədə fərman imzalayıb. Bu sənədə əsasən, agentliyin fəaliyyət istiqamətləri genişlənəcək.**

Əvvəla xatırladaq ki, bu agentlik mikro, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, qeyri-neft-qaz sektoru üzrə investisiyaların və ixracın təşviqi istiqamətində fəaliyyət göstərən, sahibkarlıq subyektlərinin maraqlarının qorunmasında iştirak edən, dövlət orqanlarının (qurumlarının) və sahibkarların bu sahədə xidmətlərini əlaqələndirən İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan qurumdur.

Agentliyin əsasnaməsində onun fəaliyyət istiqamətləri,vəzifələri, hüquqları və digər məsələlər öz əksini tapıb. Belə ki, agentliyin fəaliyyət istiqamətlərinə müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə həyata keçirilməsini təmin etmək, dövlət dəstəyi tədbirlərinin və mexanizmlərinin həyata keçirilməsi ilə bağlı işlər görmək, sahibkarların, o cümlədən investorların və ixracatçıların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üzrə tədbirlər həyata keçirmək daxildir.

Qurum eləcə də "G2B" (dövlət-biznes) xidmətlərinin inkişaf etdirilməsində, keyfiyyətinin artırılmasında, habelə vahid "G2B" elektron reyestri əsasında göstərilməsinin və şəffaflığının təmin olunmasında iştirak etməli, respublikamızın xarici ölkələrdə ticarət nümayəndələrinin fəaliyyətini əlaqələndirməli, müvafiq sahədə beynəlxalq və regional iqtisadi əməkdaşlığın inkişafına dəstək göstərməlidir və s.



Agentliyin vəzifələrinə gəldikdə isə, onlardan bir neçəsini qeyd edək: müvafiq sahəni tənzimləyən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək, müvafiq sahədə dövlət proqramlarının və inkişaf konsepsiyalarının, dövlət dəstəyi tədbirlərinin və mexanizmlərinin hazırlanmasında iştirak etmək və normativ hüquqi aktlarla müəyyən edildiyi halda həyata keçirilməsini təmin etmək; müvafiq sahədə rəqəmsallaşmanın təşviqində, rəqəmsal reyestrlərin formalaşdırılmasında və rəqəmsal təhlil sistemlərinin yaradılmasında iştirak etmək və s.

Qurumun üzərinə eləcə də mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətliliyinin artırılması, o cümlədən qeyri-neft-qaz sektoru üzrə investisiyaların və ixracın təşviqi məqsədilə təhlillər aparmaq və onların əsasında dəstək tədbirlərinin həyata keçirilməsi ilə bağlı təklifləri nazirliyə təqdim etmək, KOB subyektlərinin inkişaf mərhələləri (startap, erkən inkişaf, genişlənmə, ixrac və s.) üzrə təsnifləşdirilməsini həyata keçirmək və hər bir seqment üçün hədəfli dəstək proqramları formalaşdırmaq vəzifələri düşür.

Sözügedən sənədə əsasən, KOBİA vahid səlahiyyətli qurum qismində xarici investorların yerli bazara daxil olması, uyğunlaşması və fəaliyyətinin genişləndirilməsi üzrə xidmətlər göstərəcək və müvafiq tədbirləri həyata keçirəcək. Potensial investorların müəyyənləşdirilməsi, investisiyaların, o cümlədən prioritet sektorlar və hədəf bazarlar üzrə investorların cəlb edilməsi istiqamətində tədbirlər görmək, investisiya təşəbbüslərinin, biznes layihələrinin və ixrac fəaliyyətinin həyata keçirilməsi vəziyyətini sistemli şəkildə təhlil etmək, onların reallaşdırılmasına mane olan amilləri müəyyən etmək və aradan qaldırılması ilə bağlı nazirliyə aidiyyəti üzrə təkliflər təqdim etmək vəzifəsini də bu qurum daşıyır.

Əsasnamədə qurumun hansı hüquqlara malik olduğu da göstərilib.

Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru Yaşar Məmmədov sözügedən sənədi belə şərh edir: "Yeni Əsasnamənin başlıca mahiyyəti Azərbaycanda kiçik və orta biznesin inkişafı, qeyri-neft-qaz sektoruna investisiyaların cəlb edilməsi və ixracın təşviqi istiqamətlərinin vahid institusional idarəetmə çərçivəsində birləşdirilməsidir. Sənəd sahibkarlara göstərilən dövlət xidmətlərinin əlaqələndirilməsini, dövlət-biznes münasibətlərinin rəqəmsallaşdırılmasını və dəstək tədbirlərinin müəssisələrin inkişaf mərhələlərinə uyğunlaşdırılmasını nəzərdə tutur. Burada əsas məqsəd yalnız yeni sahibkarlıq subyektlərinin yaradılması deyil, startapdan ilkin inkişafa, genişlənmədən ixraca qədər bütün mərhələlərdə biznesin davamlı böyüməsinə şərait yaratmaqdır. Agentliyin sahibkarların hüquqlarının müdafiəsi, maliyyə mənbələrinə çıxışın yaxşılaşdırılması, investisiya layihələrinin müşayiəti və biznesin inkişafına mane olan amillərin müəyyənləşdirilməsi üzrə səlahiyyətləri bu siyasətin daha çevik və nəticəyönümlü həyata keçirilməsinə imkan verər".

Alimin fikrincə, əsasnamənin gözlənilən mühüm töhfəsi dövlət dəstəyinin ayrı-ayrı tədbirlər toplusundan vahid inkişaf sisteminə çevrilməsi ola bilər. Regional klasterlərin, "yaşıl KOB"ların, rəqəmsal və innovativ müəssisələrin dəstəklənməsi, yerli biznesin qlobal dəyər zəncirlərinə qoşulması və ixrac coğrafiyasının genişləndirilməsi qeyri-neft-qaz iqtisadiyyatının şaxələndirilməsinə yeni imkanlar açır. Dəstək mexanizmlərinin sosial-iqtisadi təsirinin qiymətləndirilməsi ayrılan vəsaitlərin nəticəsini yaradılan əlavə dəyər, daimi iş yerləri, məhsuldarlıq və ixrac artımı ilə ölçməyə şərait yaradar. Əsasnamənin səmərəli icrası mikro müəssisələrin kiçik, kiçik müəssisələrin isə orta biznes səviyyəsinə yüksəlməsini sürətləndirə, regionlarda yeni iqtisadi fəallıq mərkəzlərinin formalaşmasına və sahibkarlığın milli iqtisadiyyatdakı real çəkisinin artmasına mühüm töhfə verə bilər.

Qeyd edək ki, sənəd 2026-cı il oktyabrın 1-dən qüvvəyə minir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycan qadını peşə seçimində sərhəd tanımır

### *Bu gün fermer xanımlarımızın uğurlarının sorağı uzaq ölkələrdən gəlir*

**Qadınların cəmiyyətin sosial-iqtisadi həyatında fəal iştirakı müasir inkişaf proseslərinin mühüm istiqamətlərindən biridir. Xüsusilə kənd yerlərində onların əmək bazarında və sahibkarlıq fəaliyyətində rolunun artması ailələrin gəlir imkanlarının genişlənməsinə və regionların iqtisadi potensialının daha səmərəli həyata keçirilməsinə şərait yaradır. Aqrosahibkarlıq qadınların iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi ilə yanaşı, kənd təsərrüfatında yeni təşəbbüslərin, ailə təsərrüfatlarının və kiçik bizneslərin inkişafına təkan verir.**

Bu potensialın reallaşdırılması və qadınların aqrar sahədə daha fəal iqtisadi subyektə çevrilməsi isə ilk növbədə onların təşəbbüslərinin dəstəklənməsindən və zəruri imkanlarla təmin olunmasından asılıdır. Son illər dövlət tərəfindən həyata keçirilən müxtəlif dəstək mexanizmləri qadınların aqrar sahədə sahibkarlıq fəaliyyətinin genişlənməsinə yeni imkanlar açır. Bu siyasət qadınların aqrar sahədə sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına, onların maliyyə imkanlarının genişləndirilməsinə yönəlib. Sahibkar qadınların güzəştli maliyyə resurslarına çıxışının təmin edilməsi, investisiya layihələrinin dəstəklənməsi, müxtəlif qrant və təşviq mexanizmlərinin tətbiqi, eləcə də biznesin qurulması və inkişafı ilə bağlı məsləhət və təlim xidmətlərinin göstərilməsi əsas addımlardandır.

Xüsusilə kənd yerlərində qadınların öz təsərrüfatlarını qurması və mövcud fəaliyyətlərini genişləndirməsi üçün yaradılan imkanlar sahibkar xanımların iqtisadi fəallığının artmasına şərait yaradır. Fermer təsərrüfatlarının inkişafı, müasir texnologiyaların tətbiqi, məhsulların emalı və qablaşdırılması, həmçinin yerli və xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi qadın sahibkarların aqrar dəyər zəncirində rolunu bir qədər də gücləndirir. Bu isə o deməkdir ki, dövlət dəstəyi qadınların aqrar biznesdə fəal iştirakına, yeni iş yerlərinin yaradılmasına və kənd yerlərində dayanıqlı iqtisadi fəaliyyətin formalaşmasına xidmət edir.



Qadın fermerlərin aqrar sahədə fəaliyyətinin genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında "Aqrar Fəaliyyətli Azərbaycan Qadınları" (AFAQ) layihəsi xüsusi yer tutur. Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən həyata keçirilən bu layihə qadınların aqrar biznesə cəlb olunmasına, bilik və bacarıqlarının artırılmasına, informasiya və resurslara, eləcə də bazarlara çıxış imkanlarının genişləndirilməsinə yönəlib. Layihə çərçivəsində qadın fermerlərə təsərrüfatlarının ehtiyaclarına uyğun avadanlıq və digər texniki dəstək göstərilir. Belə dəstək mexanizmləri qadınların aqrar dəyər zəncirinin bütün mərhələlərində fəal iştirakına şərait yaradır. Nəticədə kənd yerlərində qadın sahibkarlığının genişlənməsi, ailə təsərrüfatlarının gəlirlərinin artması və yeni iş imkanlarının yaranması üçün daha əlverişli mühit formalaşır.

Qeyd edək ki, kiçik və orta təsərrüfatların inkişafında qadın sahibkarların rolu getdikcə artır. Evdə hazırlanan mürəbbə, turşu, müxtəlif meyvə quruları, süd məhsulları, şirniyyat və digər kənd məhsullarının kommersiyalaşdırılması qadın əməyinin iqtisadi dəyərə çevrilməsinə imkan verir. Əslində, ailənin tələbatını ödəmək məqsədi daşıyan bu çalışmalar zaman keçdikcə kiçik biznesə, bəzi hallarda isə daha geniş istehsal və emal müəssisələrinə çevrilir. Fermer yarmarkaları, aqrar sərgilər, festivallar və müxtəlif satış platformaları qadın sahibkarların öz məhsullarını daha geniş auditoriyaya təqdim etməsinə şərait yaradır. Belə tədbirlər yalnız məhsul satışına deyil, həm də yeni tərəfdaşlıqların qurulmasına, təcrübə mübadiləsinə və istehlakçı tələbinin öyrənilməsinə imkan verir.

Qadın fermerlərin aqrar sahədə göstərdiyi təşəbbüslər və əldə etdiyi nəticələr yalnız yerli səviyyədə deyil, beynəlxalq müstəvidə də diqqət çəkir. Bu baxımdan Azərbaycan qadınlarının ərzaq sektorunun və kənd yerlərinin inkişafına verdiyi töhfələrin beynəlxalq platformalarda tanınması xüsusi əhəmiyyət daşıyır. Kənd qadınının əməyinin beynəlxalq səviyyədə tanınması isə onun aqrar sahədəki roluna verilən yüksək qiymətin, yerli təşəbbüslərin isə qlobal miqyasda yaratdığı dəyərin parlaq ifadəsidir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərovanın "FAO 100 Women Heroes in Agrifood Systems and Rural Development" (Aqrar-ərzaq sistemləri və kənd yerlərinin inkişafında 100 Qadın Qəhrəmanı) təşəbbüsünün ilk seçilmiş iştirakçıları sırasında yer alması bunun nümunələrindəndir.

Bu təşəbbüs kənd təsərrüfatı, ərzaq sistemləri və kənd yerlərinin inkişafında mühüm rol oynayan qadınların fəaliyyətinin beynəlxalq səviyyədə fəaliyyətini artırmağa xidmət edir. Gülbəniz Qənbərovanın bu təşəbbüs çərçivəsində təmsil olunması isə qadın fermerin əməyinin, təşəbbüskarlığının və aqrar sahədə yaratdığı dəyərin beynəlxalq səviyyədə diqqətə çatdırılması baxımından əlamətdar hadisədir. Belə nümunələr kənd yerlərində fəaliyyət göstərən digər qadınların da öz imkanlarına daha böyük inamla yanaşmasına və yeni təşəbbüslərə qoşulmasına stimul verir.

Qeyd edək ki, Gülbəniz Qənbərovanın seçilməsi son dərəcə rəqabətli qlobal seçim prosesi nəticəsində baş tutub. Təşəbbüs çərçivəsində dünyanın 131-dən çox ölkəsindən 600-dən artıq namizəd irəli sürülüb. Bu namizədlər arasında Gülbəniz Qənbərova aqrar-ərzaq sistemlərinin gücləndirilməsi və kənd icmalarının həyat şəraitinin yaxşılaşdırılmasına verdiyi töhfələr, eləcə də liderlik, fədakarlıq və innovativ yanaşmaları ilə fərqlənib. Beynəlxalq tanınmanı təbii ki, sadəcə bir qadının şəxsi uğuru kimi qeyd etmək doğru olmaz. O, Azərbaycan kənd qadınlarının aqrar-ərzaq sistemlərində dəyişiklik yaradan qüvvə kimi artan rolunun təqdir olunması deməkdir.

Təsadüfi deyil ki, BMT Baş Assambleyası 2026-cı ili "Qadın Fermerlər Beynəlxalq İli" elan etməklə qadınların kənd təsərrüfatında, ərzaq təhlükəsizliyinin təmin olunmasında və kənd yerlərinin sosial-iqtisadi inkişafında rolunun daha da gücləndirilməsinin vacibliyinə diqqət çəkib. Gülbəniz Qənbərovanın nümunəsində isə sahibkarların bu qlobal prosesdə fəal iştirakı ölkədə qadın aqrosahibkarlığının inkişafına göstərilən diqqətin və əldə olunan nəticələrin beynəlxalq müstəvidə tanınmasının əhəmiyyətini daha çox artırır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

### Beynəlxalq iqtisadi icmal

## ABŞ-İran müharibəsi səbəbindən dünya 2,6 milyard barel neft itirib

**Məlum səbəbdən Avropanın Rusiyaya qarşı tətbiq etdiyi və artıq sayı itirilən sanksiyaları "qoca qitə"nin öz iqtisadiyyatına da təsirsiz ötüşmədi. Şimal qonşumuzdan aldığı ucuz neft və qaz Avropa iqtisadiyyatının dinamik inkişafını təmin edirdi. İndi "qoca qitə" özünün neftə, xüsusən də qaza olan tələbatı ödəmək üçün onları Amerikadan baha qiymətə almağa məcburdur.**



Məlum olduğu kimi, Avropanın iqtisadi lideri Almaniyadır. Bu qitədə istehsal olunan ÜDM-in önəmli hissəsi bu ölkənin payına düşür. Almaniya iqtisadiyyatının mühüm hissəsini ağır maşınqayırma təşkil edir. Bu sahənin inkişafı isə təbii qazla birbaşa bağlıdır. O üzdən alternativ mənbələrdən baha qiymətə alınan təbii qaz alman iqtisadiyyatına əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. Özü də belə vəziyyətə düşən təkcə Almaniya deyil, qitənin Rusiyaya qarşı sanksiyalara qoşulmuş bütün ölkələri yaranmış həmin çətinlik üzündən iqtisadi artıma nail ola bilmirlər. Dünyanın tanınmış mütəxəssisləri hesab edirlər ki, artıq Avropa qlobal iqtisadi və siyasi güc olmaqdan çıxmaq üzrədir.

Dünya iqtisadiyyatı ən böyük zərbəni isə ABŞ-İran müharibəsinin başlanmasından sonra aldı. Gah alovlanan, gah da kövrələn həmin savaş səbəbindən dünya bazarında neft və təbii qazın qiymətləri kəskin şəkildə bahalaşıb. Artan qiymətlər üzündən dünyada enerji daşıyıcılarının tədarükü xeyli azalıb və bu səbəbdən dünyanın bir çox neft ölkəsi istehsalı məhdudlaşdırmaq məcburiyyətində qalıb.

Beynəlxalq Enerji Agentliyi (BEA, IEA) 2026-cı ildə gündəlik qlobal neft tələbatının 1,6 milyon barelə yaxın azalacağını proqnozlaşdırır. Agentlik cari il üzrə gündəlik qlobal neft tələbinə dair proqnozunu öncəki gözləntisi ilə müqayisədə 510 min barel azaldıb. Xatırladaq ki, BEA iyul ayında 2026-cı ildə gündəlik qlobal neft tələbinin 1,047 milyon barel azalacağını proqnozlaşdırmışdı.

Hesabata əsasən, cari il gündəlik qlobal neft tələbatı 103,288 milyon barel təşkil edəcək, halbuki ötən il bu göstərici 104,844 milyon barel olmuşdu. Bundan başqa, BEA 2027-ci ildə gündəlik qlobal neft tələbatının 105,7 milyon barelə çatacağını gözləyir.

Agentlik gündəlik qlobal neft tələbinin azalmasını Hörmüz boğazının bağlanmasının davam etməsi və yüksək neft qiymətlərinin neft istehlakını məhdudlaşdırması ilə əlaqələndirir.

Bu müharibənin özünəməxsusluğun bir səbəbi də deyilən hər sözün neft-qaz qiymətlərinə təsir göstərməsidir. Tərəflərdən biri Hörmüz boğazı ilə bağlı hədə dolu bəyanat verən kimi müəyyən qədər enməkdə olan enerji resurslarının qiyməti anındaca bahalaşır. O səbəbdən alıcılar bazarın nəbzini tuta bilmirlər. Uzağa getməyək.

Bu yaxınlarda ABŞ-nin İranı qeyri-müəyyən müddətə dəniz blokadasına almaqla hədələməsi neftin qiymətinin artmasına səbəb oldu. Çünki dünyanın mühüm neft nəqli marşrutlarından biri olan bu boğazda hər hansı uzunmüddətli gərginlik qlobal bazarda neft tədarükünün pozulması riskini yaradır.

BEA-nın qiymətləndirməsinə görə, iyul ayında dünyada gündəlik neft təklifi 2,4 milyon barel artaraq 101,5 milyon barelə çatıb. Buna Fars körfəzi ölkələrinin neft hasilatını bərpa etməsi səbəb olub. Ancaq belə hal müvəqqətidir. Hərbi əməliyyatlar yenidən başlasa, körfəz ölkələrinin neft infrastrukturu atəşə məruz qalsa, hasilat yenə də azalacaq.

ABŞ və İran arasında müharibənin başlaması səbəbindən dünya 2,6 milyard barel neft itirib. Belə hal 1979-cu il İran inqilabının nəticələri istisna olmaqla, ümumi həcm baxımından tarixdə ən böyük neft tədarükü pozuntusudur. Mütəxəssislərin hesablamalarına görə, neftin itirilmiş həcmi dünya üzrə təxminən 25 günlük istehlaka bərabərdir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



# TURİZM





# Dövlət proqramı turizmin daha sürətli inkişafına geniş imkanlar yaradacaq

**Bu gün Azərbaycanda turizm qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri kimi dövlət siyasətinin mühüm tərkib hissəsidir.**

Zəngin təbii ehtiyatları, əlverişli coğrafi mövqeyi, qədim tarixi və mədəni irsi, milli mətbəxi, müxtəlif iqlim qurşaqları, müasir nəqliyyat infrastrukturu və təhlükəsiz turizm mühiti olan Azərbaycanın ayrı-ayrı bölgələri özünəməxsus gözəllikləri ilə yanaşı, müxtəlif turizm növlərinin inkişafı baxımından geniş imkanlara malikdir.

Bakı-Abşeron qədim tarixi, zəngin mədəniyyəti, Xəzər dənizi sahilində yerləşən çimərlikləri və müasir memarlığı, Quba-Qusar dağ və qış turizmi, Şəki-Zaqatala tarixi-mədəni irsi, Qəbələ və İsmayıllının təbiət və ekoturizm imkanları, Lənkəran-Astaranın subtropik təbiəti, Naxçıvanın tarixi, sağlamlıq turizmi resursları, Naftalanın müalicəvi turizm potensialı, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulan şəhər və kəndləri turizm sənayesinin gələcək inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır.

Üstəlik, respublikamızda son illər bu sahəyə dövlət dəstəyi artıb və sistemli xarakter alıb, turizmin inkişafı prioritet məsələlərdən birinə çevrilib. 2016-cı ildə Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" bu sahənin uzunmüddətli inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm sənədlərdən biridir. Sənəddə infrastrukturun yaxşılaşdırılması ilə bərabər, cəlbedici turizm məkanlarının müxtəlifliyinin və xidmət keyfiyyətinin artırılması ölkəni beynəlxalq turizm məqsədləri üçün cəlbedici turizm mərkəzinə çevirmək niyyətinin reallaşdırılmasına şərait yaradılması hədəf olaraq qarşıya qoyulub.

Prezident İlham Əliyevin 20 avqust 2026-cı ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" da ölkəmizdə turizmin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Proqramda diqqət turizmin ölkənin sosial-iqtisadi inkişafında rolunun gücləndirilməsi, qeyri-neft-qaz iqtisadiyyatının şaxələndirilməsi, regionların rəqabət qabiliyyətinin artırılması və Azərbaycanın beynəlxalq turizm məkanı kimi mövqeyinin möhkəmləndirilməsinə yönəldilib. Sənəddə qeyd olunub: "Dövlət proqramında müəyyən olunmuş hədəflərin reallaşdırılması üçün turizm sahəsində strateji çərçivənin inkişaf etdirilməsi, digər sahəvi siyasətlərin turizm siyasəti ilə uzlaşdırılması, dayanıqlı keyfiyyət təminatı sisteminin qurulması, cəlbedici təşviq mexanizmlərinin formalaşdırılması, tənzimləmə alətlərinin təkmilləşdirilməsi, brendinq, marketinq və kommunikasiya işinin gücləndirilməsi, rəqəmsallaşma imkanlarının genişləndirilməsi, statistika və kadr bazasının möhkəmləndirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi müəyyən edilmişdir".

Yeni dövlət proqramının diqqətçəkən istiqamətlərindən biri ölkəmizin turizm baxımından əlçatanlığının artırılmasıdır. Bunun üçün hava nəqliyyatının turizmin inkişafına töhfəsinin artırılması, yeni və əlavə aviareyslərin təşviqi və digər məsələlər nəzərdə tutulub. Viza siyasətinin təkmilləşdirilməsi də gəlmə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Proqram çərçivəsində ümumvətəndaş pasportu əsasında hədəf turizm ölkələrinin vətəndaşlarına münasibətdə birtərəfli və ya qarşılıqlı qaydada vizasız gediş-gəliş rejiminin tətbiqi ilə bağlı lazımi dövlətdaxili prosedurların həyata keçirilməsi, "ASAN Viza" sistemi haqqında Əsasnamə"yə uyğun olaraq çoxdəfəlik elektron vizaların verilməsinin təkmilləşdirilməsidir.

Sənəddə turistlərin səfər seçimində ənənəvi yanaşmaların öz təsirini saxlamaqda olduğu vurğulanıb. Qeyd olunub ki, mədəni irslə və təbiətlə əlaqədar turizm təcrübələrinə meyillilik və "təkbaşına" ("solo") səfərlərin payı artsa da, səyahət edənlərin seçimlərində günəş və dəniz, şəhər təcrübəsi, işgüzar görüşlərdə iştirak, alış-veriş və yaxınları ziyarət əsas motiv kimi üstünlük təşkil edir. Digər tərəfdən, təhsil və rifah səviyyəsinin yüksəlməsi ilə daha təcrübəli və yüksək keyfiyyət tələb edən turist qrupunun formalaşdığı, səyahət planlaşdırılmasında və qərar qəbuletmədə rəqəmsal vasitələrin əsas rol oynadığı, əhalinin yaşlanması və orta iş saatlarının azalması ilə yaşlı və subay insanların, uşaqsız ailələrin daha çox asudə vaxt və maliyyə imkanları olan əsas səyahətçi qruplarına çevrildiyi, o cümlədən pandemiyadan sonrakı dövrdə - 2022-ci ildən etibarən məsafədən iş rejiminin yayılmasının daha aşağı xərc və yüksək həyat keyfiyyəti təklif edən yerlərdə uzunmüddətli qalmağı seçən yeni "rəqəmsal səyyah" turist seqmenti yaratdığı dövlət proqramında nəzərə çatdırılıb.

Azərbaycanda ənənəvi turizm seçimləri üstünlük təşkil etsə də, yaxın perspektivdə yeni turist seqmentlərinin (yaşlı və subay insanlar, uşaqsız ailələr, sağlamlıq məqsədilə səyahət edənlər və s.) formalaşacağı və onların turizm bazarında əhəmiyyətinin artacağı proqnozlaşdırılır. Bu baxımdan proqramın mühüm üstünlüklərindən biri də regional turizmə xüsusi diqqət yetirilməsidir. Azərbaycan turizminin gələcəyi yalnız paytaxtın imkanlarının genişləndirilməsi ilə deyil, ölkənin bütün regionlarının özünəməxsus potensialının iqtisadi dövriyyəyə cəlb olunması ilə bağlıdır. Bu səbəbdən "Turizm kəndi" konsepsiyasının tətbiqi də əhəmiyyətlidir. Sənəddə "Turizm kəndi" üzrə meyarların, xüsusi inkişaf prinsiplərinin və dövlət dəstəyi mexanizmlərinin hazırlanması nəzərdə tutulub.

Dövlət proqramının icrası nəticəsində turizm sahəsində böyük irəliləyişlər əldə olunacaq. Azərbaycanın turizm sektorunun regional və qlobal rəqabət qabiliyyəti güclənəcək, ölkəmiz dayanıqlılıq prinsipləri əsasında müxtəlif turizm növləri üzrə yüksəkkeyfiyyətli turizm təcrübəsi təqdim edən rəqabətqabiliyyətli destinasiyaya çevriləcək. Bundan başqa, turizm potensialından səmərəli istifadə genişlənəcək, yerli və xarici investisiyaların cəlb edilməsi təşviq olunacaq, regionların balanslı sosial-iqtisadi inkişafı dəstəklənəcək, yeni iş yerləri yaradılacaq, regionlarda məşğulluq və əhalinin pul gəlirləri artacaq, qeyri-neft-qaz sektorunun ümumi daxili məhsuldakı payının artırılmasına töhfə veriləcək. Həmçinin turizm infrastrukturu müasirləşəcək, turizm xidmətlərinin keyfiyyəti yüksələcək və turist axınının davamlı artımı təmin ediləcək.

Müasir dünyada turistin ölkə haqqında ilk təsəvvürü çox vaxt səfərdən əvvəl internet üzərindən formalaşır. Buna görə də turizm xidmətlərinin rəqəmsallaşdırılması yeni dövlət proqramında ayrıca istiqamət kimi müəyyənləşdirilib. Proqram çərçivəsində Turizm İnformasiya Sisteminin yaradılması və inkişaf etdirilməsi, "Azerbaijan.travel" rəqəmsal turizm platformasının təkmilləşdirilməsi, nəqliyyat marşrutları haqqında məlumatların beynəlxalq standartlara uyğun rəqəmsal formatda təqdim edilməsi nəzərdə tutulur. Sənəddə turizm obyektləri üçün 5 xarici dildə bələdçi mətnlərinin rəqəmsallaşdırılması, audiobələdçilərin QR kodlar və digər rəqəmsal alətlər vasitəsilə turistlərin istifadəsinə verilməsi də planlaşdırılır.

Qeyd etdiyimiz kimi, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası turizm sektorunun qarşısında da yeni imkanlar açır. Qarabağ və Şərqi Zəngəzurun zəngin təbiəti, tarixi-mədəni irsi, dağlıq landşaftı, mineral və termal ehtiyatları, qədim yaşayış məskənləri və yeni yaradılan müasir infrastrukturu gələcəkdə Azərbaycanın turizm xəritəsinin mühüm hissəsinə çevriləcək. Şuşa, Xankəndi, Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Ağdam və digər ərazilərin bərpası ilə paralel olaraq burada turizm üçün zəruri infrastrukturun formalaşdırılması həm bu ərazilərin iqtisadi fəallığının yüksəlməsinə, həm də Azərbaycanın tarixi və mədəni irsinin beynəlxalq miqyasda daha geniş tanıdılmasına xidmət edəcək.

Qarabağın turizm inkişafı həm də Böyük qayıdış prosesinin iqtisadi və sosial dayaqlarından biri olacaq. Turizm burada yeni bizneslərin, xidmət sahələrinin və məşğulluq imkanlarının yaranmasına şərait yaradacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# İki əsrin yadigarı, Qafqazın möhtəşəm minarəsi

**Bu tarixi abidə iki əsrdən çoxdur ki, milli-mənəvi dəyərləri özündə əks etdirməklə yanaşı, tarixi unikallığı ilə də göz oxşayır, əzəməti ilə əsrlərə meydan oxuyur. Söhbət şimal-qərb qapımız olan Balakəndə yerləşən, tikintisi 10 ilə tamamlanan Cümə məscidinin minarəsindən gedir.**



Şimal-qərb sərhədində yerləşən bu möhtəşəm tikili hətta qonşu dövlətlərin ərazisindən də aydın görünür. Qafqazın ən möhtəşəm minarəsi titulunu qoruyub saxlayan ölkə əhəmiyyətli bu tarixi abidə dövlət tərəfindən mühafizə olunur. AZƏRTAC-ın bölgə müxbiri obyekti yaxından seyr etmək və ətraflı məlumat almaq üçün Balakən Cümə məscidində olub.

Məscidin həyətində 1867-1877-ci illərdə inşa edilən minarə Azərbaycan və türk-islam memarlığı sırasında özünəməxsusluğu ilə seçilir.

Səhərin erkən saatlarında minarəyə qalxıb ətrafı seyr edirik. Buradan Balakən şəhəri ovuc içi kimi görünür. Mərkəzdə ucalan 45 metrlik bu minarədən şimalda Rusiya, qərbdə Gürcüstan, cənub və şərqdə isə Azərbaycanın Qax və Zaqatala rayonlarının ərazilərini rahatlıqla izləmək mümkündür.

Rayon ərazisində Pəri qala, Nur məbədi, Katex gözətçi qüllələri kimi bir çox memarlıq abidələri var. Lakin Qafqazın bu möhtəşəm minarəsi xüsusi əhəmiyyətə malikdir. Məscid və minarənin bölgədə 1863-cü il üsyanından sonra inşa olunması heç də təsadüfi deyil.

AMEA Şəki Regional Elmi Mərkəzinin əməkdaşı Akif Məmmədli bildirib ki, abidə çar Rusiyasının zorakı xristianlaşdırma siyasətinə qarşı baş qaldıran 1863-cü il üsyanından sonra tikilib: "O dövrdə rus canişinləri və hərbçiləri imperatora məruzə etdilər ki, bu əhalini güclə tabe etmək mümkün deyil. Xüsusilə onların dininə və ibadət məkanlarına toxunduqda çox amansız müqavimətlə qarşılaşırlar. Bu səbəbdən üsyandan sonra bölgənin dini azadlığı tanındı və məscidin inşasına icazə verildi. Tikintiyə 1867-ci ildə başlanılıb və 1877-ci ildə başa çatdırılıb. Minarənin üzərindəki dörd kitabədə də məhz bu tarixi dövr əks olunub".

Tarixçi mənbələrə əsaslanaraq qeyd edir ki, məscidin binası çay daşından, minarəsi isə bişmiş kərpicdən inşa edilib. Tikintidə əhəng və yumurta sarısından istifadə olunması abidənin bu günədək sağlam qalmasına, zəlzələlərə və təbii fəlakətlərə tab gətirməsinə zəmin yaradıb.

"Bu, sadəcə minarə deyil. O, özündə qədim elmlərin - riyaziyyat, həndəsə və astronomiyanın incəliklərini ehtiva edən nadir memarlıq nümunəsidir. Yerli materiallardan - bişirilmiş torpaq, yumurta sarısı və digər təbii qatqılardan hazırlanan bu tikili iki əsrə yaxındır ki, təbiətin şıltaqlıqlarına sinə gərərək dimdik ayaqda durur", - deyə A.Məmmədli vurğulayır.

Akif Məmmədli abidənin 2007-ci ildə bərpa edildiyini, hazırda Balakənə gələn yerli və xarici turistlərin ən çox baş çəkdiyi məkanlardan biri olduğunu diqqətə çatdırır. 45 metr hündürlükdəki eyvandan ətrafı seyr etməyin xüsusi zövq verdiyini bildirən müsahibimiz bu tarixi abidənin rəsmi turizm marşrutlarına salınmasının məqsədəuyğunluğunu qeyd edir.

# Turizm sahəsində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektlərinə subsidiya dəstəyi veriləcək

**Turizm sahəsində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektlərinə subsidiya dəstəyi veriləcək. AZƏRTAC xəbər verir ki, bu, "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulub.**

Tədbirin əsas icraçısı Dövlət Turizm Agentliyi, digər icraçıları isə Kənd Təsərrüfatı, Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat və Maliyyə nazirlikləridir.

Sənədə əsasən, 2026-2027-ci illərdə subsidiya şərtlərinin müəyyən edilməsi, normativ hüquqi akt layihələrinin hazırlanması və təsdiqlənməsi, subsidiya mexanizminin tətbiqinə başlanılması nəzərdə tutulur.

# 3 yeni turizm və rekreasiya zonası yaradılacaq

**Azərbaycanda 2027-2030-cu illərdə 3 yeni turizm və rekreasiya zonasının yaradılması nəzərdə tutulur. AZƏRTAC xəbər verir ki, bu, "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda öz əksini tapıb.**

Dövlət proqramına əsasən, yeni turizm və rekreasiya zonalarının tərkibində azı 3 turizm mərkəzi yaradılacaq və seçilmiş turizm mərkəzləri müvafiq infrastrukturla təmin ediləcək.

Bu çərçivədə turizm mərkəzlərinin sosial, mədəni, inzibati və mühəndis-kommunikasiya təminatı sistemlərinin, dövlət mülkiyyətində olan avtomobil yollarının və yol-nəqliyyat infrastrukturunun yaradılması və inkişaf etdirilməsi nəzərdə tutulur.

Layihələrin həyata keçirilməsi nəticəsində infrastrukturla təmin edilmiş turizm mərkəzlərinə özəl investisiyaların cəlb edilməsi və dövlət-özəl tərəfdaşlığı layihələrinin icrası ilə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi planlaşdırılır.

Tədbirin əsas icraçısı Dövlət Turizm Agentliyidir. İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və yerli icra hakimiyyəti orqanları isə digər icraçılar kimi müəyyənləşdirilib.

Qeyd edək ki, rekreasiya zonası insanların istirahət etməsi, əylənməsi, idman etməsi üçün ayrılan xüsusi ərazidir. Bu zonalar təbiəti qorumaq, həmçinin yerli sakinlərə və turistlərə əlverişli şərait yaratmaq üçün təşkil olunur.

# Ölkəmizə turist gətirən çarter aviareyslər subsidiyalaşdırılacaq

**Hava nəqliyyatı ilə qeyri-müntəzəm (çarter) uçuşların təşkilinə görə təşkilatçıların xərclərinin kompensasiyası ilə bağlı subsidiya mexanizminin yaradılması nəzərdə tutulub.**

AZƏRTAC xəbər verir ki, bu, "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulub.

Bununla yanaşı, hədəf turizm bazarları üzrə əlavə müntəzəm aviareyslərin təşkili ilə bağlı da subsidiya mexanizminin yaradılması nəzərdə tutulur.

Hər iki istiqamət üzrə ilkin mərhələdə subsidiya şərtləri müəyyən ediləcək və müvafiq normativ hüquqi akt layihələri hazırlanacaq. Növbəti mərhələdə normativ hüquqi aktların təsdiq edilməsi, yekunda isə subsidiya mexanizmlərinin tətbiqinə başlanılması planlaşdırılır.

Tədbirlərin əsas icraçısı Dövlət Turizm Agentliyidir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, AZCON Holdinq, "Azərbaycan Hava Yolları" QSC (AZAL), İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi digər icraçılar kimi müəyyənləşdirilib.

# Adı turizm brendinə çevrilən Qəbələ

**Azərbaycanın qədimdən qədim tarixi yerləri və təbiəti ilə zəngin olan bölgələri çoxdur. Bu bölgələr bənzərsizlikləri ilə həm yerli, həm də xarici turistləri cəlb edir.**



Belə bölgələrimizdən biri də keçmiş tarixi ilə müasirliyi özündə qovuşduran Qəbələdir. Rayonda gəzməli və görməli yerləri saymaqla qurtarmaz. Hamısı da bir-birindən gözəl və bənzərsiz. Tufandağ Dağ-Xizək Kompleksi Qəbələdə turistlərin ən çox axın etdiyi istirahət məkanlarındandır. Burada qış ayları ağ dona bürünən dağların ətəklərində xizək sürmək, peşəkar və ya həvəskar traslarda əylənmək mümkündür. Yay və yaz aylarında isə kanat yolu ilə dağa qalxmaq, təmiz dağ havası udmaq, yüksəkliyə qalxdıqca qarşında kitab kimi açılan təkrarsız mənzərəni seyr etmək turistlərə xüsusi zövq verir. Bir sözlə, bura həm ekstremal idman həvəskarları, həm də ailəvi istirahət edənlər üçün ən münasib yerdir.

Qəbələnin cənub-şərqində yerləşən Nohurqışlaq gölünün gözəlliyini görməyə can atanların sayı da həmişə çox olur. Bu da səbəbsiz deyil. Gölü əhatə edən yaşıllıq zolağı, dağlar, bu dağlardan, yaşıllıqdan ətrafa yayılan təmiz və sərin hava turistlərin zövqünü oxşayır. Ayağını buraya qoyandan sonra bu gözəllikdən ayrılıb geri dönməyi unudursan. Ətrafda hökm sürən sakitlik bir anlıq təbiətin ritmini dinləməyə, düşüncələrinlə başbaşa qalmağa imkan yaradır. Sahili hündür dağların ətəyinə qədər uzanıb gedən gölün xırda ləpələri üzərində katamarana və ya kiçik qayığa minmək mümkündür. Gölün ətrafında turistlər üçün həm piknik etmək, şəkil çəkdirmək, həm də sadəcə oturub təbiətin səsinə qulaq asmaq, onun seyrinə dalmaq üçün əlverişli şərait yaradılıb. Odur ki, vaxtlarını təbiətin sakit qoynunda keçirmək arzusunda olanlar tez-tez Nohurqışlaq gölünün sahillərinə üz tuturlar, vaxtlarını bu gözəlliyin qoynunda keçirirlər.

Turistlərin, uşaqlı ailələrin ən çox üz tutduğu yerlərdən biri də Qəbələ Əyləncə Parkıdır. Park adrenalin dolu attraksionları və əyləncə zonaları ilə bura gələnləri valeh edir. Azərbaycanın ən böyük açıq hava əyləncə parklarından olan bu məkan yalnız uşaqların deyil, elə böyüklərin də sevimli istirahət və əyləncə yeridir. Karusellər, su attraksionları, elektron oyun salonları və kiçik zoopark turistlərin vaxtlarını səmərəli keçirmələrinə imkan verir. Parkın ərazisində restoran və kafelər də fəaliyyət göstərir.

Təbiət möcüzələrini seyr etməyi sevən turistlər üçün Qəbələdəki Yeddi Gözəl şəlaləsi əvəzsiz olduğu qədər də, qeyri-adi bir məkandır. Adı ərazidə yerləşən yeddi pilləli şəlalədən alınıb. Şəlalənin yerləşdiyi ərazi gözəlliyi ilə bərabər, təmiz dağ havası, yaşıl meşəlikləri və gur axan suyun səsi ilə qonaqları bir an içində sehrinə salır. Bir anlıq sanki keçmişə dönürsən, nağıllar aləminə düşürsən. Şəlaləyə gedib baxmaq, ona çatmaq üçün bir az yuxarı, dağa qalxmaq lazımdır. İlk baxışda bəlkə də, bu yorucu görünə bilər, amma yolboyu turistlərin qarşılaşdıqları mənzərələr onlara yorğunluqlarını unutdurur.

Qəbələnin Nic kəndi də turistlərin daha çox baş çəkdiyi yerlərdən biridir. Bu da səbəbsiz deyil, çünki Nic kəndi qədim alban kökündən olan udinlərin əsas yaşayış məskənidir. Kənddə qədim alban kilsələrini, Udin məbədlərini ziyarət etmək, udin mətbəxi ilə tanış olmaq və bu xalqın tarixini eşitmək çox maraqlıdır. Kənddə keçirilən ənənəvi ustad dərsləri, yemək təqdimatları və ekskursiyaları turistlərdə xoş təəssüratlar oyadır.

Tarixə böyük maraq göstərən turistlər və ziyarətçilər üçün Qəbələnin ən dəyərli ünvanlarından biri də Çuxur Qəbələ kəndidir. Daha doğrusu, kənddə yerləşən Qədim Qəbələ şəhərinin qalıqlarıdır. Məlumdur ki, bu ərazi 2500 illik tarixi özündə qoruyub yaşadır. Qədim Qəbələ Qafqaz Albaniyasının paytaxtı olmuşdur. Aparılan arxeoloji qazıntılar zamanı burada qədim qala divarları, saxsı qablar və digər tarixi əşyalar aşkarlanıb.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Nizami Gəncəvi - 885

# Əsrləri aşan söz və fikir dühası

**Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasından 885 il ötür. Xalqımızın dünya mədəniyyətinə bəxş etdiyi böyük şəxsiyyətlər sırasında Nizami Gəncəvinin adı hər zaman xüsusi ehtiramla çəkilir. O, yalnız Azərbaycan ədəbiyyatının deyil, bütövlükdə Şərq və dünya poetik-fəlsəfi fikrinin ən möhtəşəm simalarındandır.**



Aradan əsrlər keçsə də, Nizami yaradıcılığı öz bədii qüdrətini, fəlsəfi dərinliyini və mənəvi aktuallığını heç zaman itirmir. Əksinə, zaman dəyişdikcə böyük mütəfəkkirin insan, cəmiyyət, ədalət, hakimiyyət, məhəbbət, mənəviyyat, elm və s. haqqında düşüncələri yeni məna çalarları qazanaraq müasir insanı daha çox düşündürür.

Yubiley illəri isə Nizami irsinə zaman-zaman yenidən nəzər salmaq, onun əsərlərindəki bəşəri ideyaları müasir dövrün mənəvi və ictimai reallıqları kontekstində dərk və təbliğ etmək üçün əlamətdar fürsətdir.

## Gəncədən çıxmadan sözü ilə dünyanı fəth etmişdi

Nizami Gəncəvi (İlyas Yusif oğlu) 1141-ci ildə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Gəncədə dünyaya gəlmişdir. O, bütün ömrünü doğma şəhərində keçirərək burada yaşayıb yaratmış, Yaxın və Orta Şərqin fəlsəfi-ictimai və ədəbi-estetik düşüncə tarixini zənginləşdirən ölməz əsərlərini qələmə almışdır. Bu faktın özü Nizami şəxsiyyətinin ən mühüm xüsusiyyətlərindən birini - doğma torpağa bağlılığını göstərir. O, öz dövrünün geniş coğrafiyasını düşüncə və mütaliə vasitəsilə mənimsəsə də, yaradıcılığının mənəvi dayağını doğma torpağında, Azərbaycan mühitində tapmışdır. Şairin əsərlərində Azərbaycanın tarixi şəhərlərinin, təbiətinin, insanlarının, adət və ənənələrinin geniş yer tutması da bunun göstəricisidir.

Nizami Gəncə mədrəsələrində öz dövrünün və mühitinin ən yüksək təhsil səviyyəsinə yiyələnmiş, sonralarsa mütaliə və şəxsi araşdırmaları ilə elmi dünyagörüşünü daha da genişləndirmişdir. Əsərləri onun ensiklopedik biliyə malik mütəfəkkir olduğunu göstərir.

Nizami türk, ərəb və fars dillərini mükəmməl bilirdi, müxtəlif elm sahələrinə dərindən bələd idi. Əsərlərində astronomiya, tibb, riyaziyyat, həndəsə, fəlsəfə, tarix və digər elmlərə dair biliklərin əks olunması şairin intellektual miqyasını nümayiş etdirirdi. Qədim yunan fəlsəfəsi və tarixi ilə bağlı məlumatları da onun geniş dünyagörüşündən xəbər verirdi. Beləliklə, Nizami yaradıcılığında şeir poetik ifadə vasitəsi olmaqla yanaşı, həm də bilik, hikmət və dünyanı dərk etmək üsuludur.

## "Xəmsə" zirvəsi

Nizami yaradıcılığa lirik şeirlərlə başlamışdır. O, qəzəl və qəsidə müəllifi kimi şöhrət qazanmış, böyük divan yaratmışdır. Şərq təzkirəçilərinin məlumatına görə, vaxtilə təqribən 20 min beytdən ibarət olduğu bildirilən bu zəngin irsdən, əfsus ki, günümüzə az hissə gəlib çatmışdır. Bu gün Nizami irsindən 6 qəsidə, 120 qəzəl, 30 rübai və onun ölməz "Xəmsə"si qalmışdı. Şairin qəzəllərini dünyəvilik, real eşqin tərənnümü və insan duyğularının səmimi ifadəsi fərqləndirir.

Nizami Gəncəvinin dünya ədəbiyyatında əbədi yerini müəyyənləşdirən əsas yaradıcılıq abidəsi isə şübhəsiz ki, beş böyük poemadan ibarət "Xəmsə"dir. Nizami Şərq ədəbiyyatında "Xəmsə" ("Beşlik") yaratmaq ənənəsinin əsasını qoymuşdur. Bu monumental əsər təxminən 30 illik yaradıcılıq fəaliyyətinin məhsuludur. "Xəmsə"də şairin bədii təxəyyülü ilə elmi dünyagörüşü, fəlsəfi düşüncəsi ilə ictimai mövqeyi, insan və cəmiyyət haqqında qənaətləri vahid poetik sistemdə birləşir. "Xəmsə"nin hər bir poemasının özünəməxsus süjeti, obrazları və ideya istiqaməti olsa da, onları birləşdirən böyük bir mənəvi xətt var - insanın kamilləşməsi və ədalətli cəmiyyət idealına çatması.

Şairin "Sirlər xəzinəsi" "Xəmsə"nin ilk poemasıdır. Əsərin vahid süjet xətti və konkret baş qəhrəmanı yoxdur. Poema müxtəlif ictimai, fəlsəfi və dini problemləri əhatə edən rəvayət və hekayətlərdən ibarətdir. Burada Nizami şairdən çox mütəfəkkir kimi çıxış edir. O, insanın mənəvi məsuliyyətini, hökmdarın xalq qarşısında borcunu, ədalət və vicdan məsələlərini önə çəkir.

Əsərin əsas ideyalarından biri ədalətdir. Nizami üçün hökmdarın böyüklüyü onun sərvətində və hakimiyyətinin genişliyində deyil, məhz adilliyindədir. Şair insanın mənəvi ucalığını da zahiri şöhrət və var-dövlətlə yox, onun əxlaqı, vicdanı və mərhəməti ilə ölçür. Bu baxımdan "Sirlər xəzinəsi" XII əsrin əsəri olmaqla məhdudlaşmır, ondakı suallar indi də aktualdır: hakimiyyət insan qarşısında hansı məsuliyyəti daşımalıdır? İnsan nə zaman həqiqətən kamil sayıla bilər? Ədalətli cəmiyyət necə qurulmalıdır və s. Nizaminin böyüklüyü də məhz bundadır - o öz dövrünün hadisələrindən çıxış edərək bütün zamanlara aid suallar qoyur.

1180-ci ildə tamamlanmış "Xosrov və Şirin" poeması da Nizami yaradıcılığının mühüm mərhələlərindəndir. Şair bu poemada müxtəlif mənbələrdən, əfsanə və rəvayətlərdən, tarixi məlumatlardan və Firdovsinin "Şahnamə"sindən bəhrələnsə də, məlum materialı sadəcə təkrarlamamış, tamamilə fərqli poetik dünya yaratmışdır.

Sasani hökmdarı Xosrov Pərvizlə Şirin arasındakı məhəbbət əsərin əsas süjet xəttidir. Hadisələrin mühüm hissəsinin Azərbaycanda, o cümlədən Bərdə şəhərində cərəyan etməsi də diqqətəlayiqdir. Poemada məhəbbət sadəcə romantik hiss kimi təqdim olunmur. Nizami onu insanın mənəvi sınağı, sədaqət və məsuliyyət meyarı kimi təqdim edir. Şirin obrazı isə Şərq ədəbiyyatında qadın şəxsiyyətinin gücünü, iradəsini və mənəvi müstəqilliyini ifadə edən ən parlaq obrazlardan birinə çevrilir.

Əsərdə qadın azadlığı məsələsinin qoyulması Nizami humanizminin mühüm cəhətlərindəndir. Şair qadını yalnız sevgi obyektinə çevirmir, ona düşünən, qərar verən, öz taleyinə münasibət bildirən şəxsiyyət kimi yanaşır. "Xosrov və Şirin" bu xüsusiyyətlərinə görə Yaxın Şərq ədəbiyyatında ilk böyük məhəbbət poemalarından biri olmaqla vahid süjet xəttinə malik ilk mənzum roman nümunəsi kimi də qiymətləndirilir.

## Eşqin əbədi zirvəsi

1188-ci ildə Şirvan hökmdarı I Axsitan Nizamiyə "Leyli və Məcnun" mövzusunda əsər yazmağı sifariş edir. Əvvəlcə bu təklifə tərəddüdlə yanaşan şair sonradan oğlu Məhəmmədin təkidi ilə əsəri qələmə alır.

Qədim ərəb əfsanəsi əsasında yazılmış "Leyli və Məcnun" əsərində Nizaminin böyük poetik ustalığı nümayiş olunur. Şair məlum süjeti yenidən danışmaqla kifayətlənmir, ona öz fəlsəfi və humanist baxışlarını əlavə edir. Məcnunun Leyliyə olan sevgisi məhəbbət sərhədlərini aşaraq mənəvi və fəlsəfi məna qazanır. Eşq burada insanın özünü dərk etməsinin, dünyanı və varlığı başqa gözlə görməsinin vasitəsinə çevrilir. Poemada qadın obrazları xüsusi diqqət çəkir. Leyli və digər qadınlar Nizaminin qələmində passiv obrazlar kimi nəzərə çarpmır, onlar öz hissləri, düşüncələri və mənəvi dünyaları olan şəxsiyyətlərdir.

Əsərin faciəli sonluğu isə Nizaminin təsvir etdiyi ictimai reallığın sərtliyini göstərir. Leyli və Məcnunun sevgisi cəmiyyətin qoyduğu sərhədləri aşa bilmir və əsər qəhrəmanların ölümü ilə başa çatır.

1197-ci ildə tamamlanan "Yeddi gözəl" poemasının baş qəhrəmanı isə V əsrdə hakimiyyətdə olmuş Sasani hökmdarı Bəhram Gurdur. Nizami burada sadəcə tarixi hadisələri təsvir etməklə məhdudlaşmadan Bəhram Gur obrazı vasitəsilə öz dövrünün ictimai-siyasi və mənəvi problemlərinə münasibət bildirməyi qarşısına məqsəd qoyur və bu məqsədə uğurla çatır.

Burada yeddi ölkədən gəlmiş gözəllərin danışdıqları hekayətlər insan və cəmiyyət haqqında düşüncələrdir. Şair müxtəlif hekayələr vasitəsilə insanın ehtiraslarını, zəifliklərini, mənəvi seçimlərini və həyatın ziddiyyətlərini göstərir. Bəhram obrazı üzərindən isə hökmdarın məsuliyyəti məsələsini ön plana çəkir. Nizami keçmişdən nümunə gətirərək öz dövrünün hakimlərini ədalətə, müdrikliyə və xalqın taleyinə məsuliyyətlə yanaşmağa çağırır.

Tədqiqatçılar bildirirlər ki, Nizami Gəncəvinin təxminən 1203-cü ildə tamamladığı "İsgəndərnamə" onun 30 illik elmi və bədii axtarışlarının məntiqi yekunu, yaradıcılığının zirvəsidir. Poema tarixi mövzuda yazılsa da, İsgəndər obrazı şair üçün insan, hakimiyyət, elm, dünya və mənəvi kamillik haqqında düşüncələrini ifadə edən poetik vasitəyə çevrilir. Şair İsgəndərin cahangirlik tarixini əsərin yalnız zahiri süjet xətti kimi təqdim edir. Əsas diqqət məhz insanlığın əbədi problemlərinə yönəlir.

Əsərdə elmə, biliyə, müdrikliyə xüsusi qiymət verilir. İsgəndərin dünyanın müxtəlif yerlərinə səfərləri, alim və filosoflarla görüşləri, müxtəlif xalqlar və cəmiyyətlərlə təmasları vasitəsilə Nizami insanlığın gələcəyi haqqında düşüncələrini ifadə edir. "İsgəndərnamə"də şairin ömrü boyu düşündüyü məsələlər bir növ yekunlaşır. O, insanın dünyadakı yerini, hakimiyyətin mahiyyətini, elm və ağılın gücünü, ədalətli cəmiyyət idealını və mənəvi kamillik problemini bir bütöv fəlsəfi sistemdə birləşdirir.

İsgəndərin dirilik suyunu axtarması motivi də burada xüsusi məna daşıyır. Nizami göstərir ki, insanın əbədi yaşaması yalnız fiziki ölümsüzlüklə bağlı deyil. Əsl ölümsüzlük insanın yaratdığı əsərdə, qoyduğu mənəvi irsdə və gələcək nəsillərə ötürdüyü fikirdədir. Bu mənada, Nizaminin özü də öz əsərləri ilə "dirilik suyuna" yetişmiş şəxsiyyətdir. Onun fiziki ömrü XII əsrdə - 1209-cu ildə başa çatsa da, sözü əsrləri keçərək bu günə gəlib çatıb.

## Mütəfəkkir şairin sərhədləri aşan təsir gücü

Nizami Gəncəvinin Azərbaycanla bağlılığı yalnız coğrafi bağlılıqdan ibarət deyil. Onun əsərlərindəki dünyagörüşü, insan və cəmiyyət haqqında düşüncələri, mənəvi dəyərləri Azərbaycan xalqının zəngin mədəni irsinin mühüm tərkib hissəsidir. Nizami Gəncəvinin Azərbaycan ədəbiyyatındakı mövqeyi sonrakı əsrlərdə də böyük şairlərin yaradıcılığına təsir göstərmişdir. Əlişir Nəvai, Əmir Xosrov Dəhləvi, Füzuli, Əssar Təbrizi, Əbdürrəhman Cami kimi Şərqin böyük sənətkarları Nizami yaradıcılığından bəhrələnmişlər. Beləcə, Gəncədə yaranan söz sənəti məktəbi əsrlər boyu geniş coğrafiyaya yayılmış, Nizaminin adı böyük bir ədəbi ənənənin simvoluna çevrilmişdir.

Amma Nizaminin təsiri yalnız Azərbaycan və Şərq ədəbiyyatı ilə də məhdudlaşmayıb. XIII əsrdən başlayaraq, onun poemalarına çoxsaylı nəzirələr yazılmışdır. Şairin yaratdığı poetik ənənə əsrlər boyu davam etmiş, Nizami məktəbi Şərq ədəbiyyatının inkişafında mühüm rol oynamışdır. Onun əsərləri miniatür sənətinin də inkişafına ciddi təsir göstərmişdir. Nizaminin "Xəmsə"si əsrlər boyu xəttatların, miniatürçülərin, kitab sənətkarlarının və tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu əsərlər əsasında yaradılmış miniatürlər Şərq incəsənətinin ən möhtəşəm nümunələri kimi Şərq təsviri sənətinin ən qiymətli inciləri sırasında yer alır.

Nizami yaradıcılığının təsiri Qərbi Avropaya da çatmışdır. Bokkaççonun "Ameto", Karlo Qotsinin "Turandot", Lesajın "Çin şahzadə xanımı", Volterin "Paxıl" kimi əsərlərində Nizami motivlərinin və ideyalarının təsirini görmək mümkündür. Bu, Nizami yaradıcılığının coğrafi sərhədləri aşan gücünü göstərir.

Nizami Gəncəvinin əsərləri dünyanın çoxsaylı xalqlarının dillərinə tərcümə olunmuşdur. Əsərlərinin nadir əlyazma nüsxələri Bakı ilə yanaşı, London, Paris, İstanbul, Moskva, Sankt-Peterburq, Daşkənd, Təbriz, Tehran, Qahirə, Dehli və digər şəhərlərin kitabxana, muzey və əlyazma fondlarında qorunur. Bu əlyazmalar dünya mədəni irsinin qiymətli nümunələridir.

## Nizami irsinə diqqət

Azərbaycanda Nizami irsinin öyrənilməsi və təbliği dövlət səviyyəsində həmişə xüsusi diqqət mərkəzində olub. Ötən əsrin 40-cı illərində dahi şairin 800 illik yubileyinin təntənəli şəkildə keçirilməsi onun əsərlərinin tədqiqi və təbliğində mühüm dönüş yaratmışdır. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərarın qəbul edilməsi isə nizamişünaslığın inkişafına yeni imkanlar açmışdır. 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley tədbirləri də Azərbaycanın mədəni həyatının mühüm hadisəsinə çevrilmişdir.

Nizami Gəncəviyə bu rəğbət dolu münasibət Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə də davam etmişdir. 2011-ci ildə dahi şairin 870 illik yubileyi dövlət səviyyəsində geniş qeyd olunmuşdur. 2021-ci il isə dövlət başçısının sərəncamı ilə 2021-ci il "Nizami Gəncəvi ili" elan edilmiş və dahi mütəfəkkirin 880 illik yubileyi tam bir il ərzində ölkəmizdə və xaricdə geniş silsilə tədbirlərlə qeyd olunmuşdur. Bu tədbirlər Nizami irsinin müasir Azərbaycanın milli-mədəni kimliyinin də mühüm təməllərindən olduğunu bir daha nümayiş etdirir. Prezidentin 23 dekabr 2011-ci il tarixli sərəncamına əsasən, 870 illik yubiley tədbirləri çərçivəsində 30 sentyabr 2012-ci il tarixində şairin vətəni Gəncədə keçirilmiş xüsusi toplantı zamanı təsis edilən və ötən illər ərzində mühüm qlobal təşəbbüsləri ilə beynəlxalq aləmdə böyük nüfuz qazanan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dahi şairin adını daşıması da bu diqqətin nümunəsidir. Bu gün Moskva, Sankt-Peterburq, Çeboksarı, Roma, Lüksemburq, Kişinyov, Daşkənd, Təbriz və digər şəhərlərdə abidələrinin olması isə Nizami irsinin beynəlxalq miqyasını göstərir.

Nizami yalnız ədəbiyyatın deyil, müxtəlif incəsənət sahələrinin də ilham mənbəyidir. Onun həyatı və yaradıcılığı haqqında romanlar, pyeslər, poemalar yazılıb, operalar, simfoniyalar və baletlər yaradılıb, filmlər çəkilib. M.S.Ordubadinin "Qılınc və qələm" romanı, M.Hüseynin "Nizami" pyesi, B.Azəroğlunun "Nizami Gəncəvi" poeması, Ə.Bədəlbəylinin "Nizami" operası, F.Əmirovun "Nizaminin xatirəsinə" simfoniyası və "Nizami" baleti, Q.Qarayevin "Yeddi gözəl" baleti və "Leyli və Məcnun" simfonik əsəri, baş rolda Müslüm Maqomayevin çəkildiyi "Nizami" bədii filmi kimi nümunələr Nizami obrazının Azərbaycan incəsənətində necə böyük yaradıcı potensiala malik olduğunu göstərir.

Mütəfəkkir şair əsrlərdir ki, dünya şərqşünaslığının diqqət mərkəzindədir. Onun həyat və yaradıcılığı ilə bağlı çoxsaylı tədqiqatlar aparılıb, əsərlərinin elmi-tənqidi mətnləri hazırlanıb, müxtəlif dillərdə monoqrafiyalar və araşdırmalar nəşr olunub. A.Y.Krımski, Y.E.Bertels, Y.N.Marr, H.Araslı və başqa görkəmli alimlərin araşdırmaları nizamişünaslığın inkişafında mühüm rol oynayıb. Amma bu gün nizamişünaslığın qarşısında dayanan əsas vəzifələrdən biri yalnız Nizaminin əsərlərini öyrənmək deyil, onun ideyalarını yeni elmi yanaşmalarla təhlil və dünya elmi-mədəni ictimaiyyətinə daha geniş təqdim etməkdir.

*İradə ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

## Elm xadimlərimiz

# Torpağın dilini bilirdi

**Başqa sahələr kimi, torpaqşünaslığın da özünəməxsus fərqli xüsusiyyətləri var. Gərək torpaqla "danışmağı" bacarasan, onun dilini biləsən. Azərbaycanda bu sahəni dərindən öyrənən, araşdıran görkəmli alimlər çox olub. Onlardan biri də dəyərli alim Şahalı Həsənovdur.**



Uzun illər torpaqşünaslıq sahəsində sanballı elmi araşdırmalar aparmış, bu mövzuda bir-birindən dəyərli əsərlər, dərsliklər yazmış Şahalı Gülmalı oğlu Həsənov 1921-ci il mayın 12-də Ağsunun Gəgəli kəndində dünyaya göz açmışdı. 1938-ci ildə kəndlərindəki yeddillik orta məktəbi bitirdikdən sonra M.Ə.Sabir adına Şamaxı Pedaqoji Texnikumuna qəbul olmuşdu. Təhsilini bitirdikdən sonra bir il orta məktəbdə müəllim işləmişdi. Amma istəyi ali təhsil almaq, elm adamı olmaq idi.

1941-1945-ci illər müharibəsinin başlaması çoxları kimi onun da arzularını yarımçıq qoydu. Şahalı Həsənov 1941-1942-ci illərdə Krım cəbhəsində 77-ci Azərbaycan diviziyasının tərkibində vuruşdu. Əməliyyat zamanı ağır yaralandı. Nə qədər müalicə alsa da, sağlamlığını bərpa etmək mümkün olmadı. Buna görə də onu ordudan tərxis etdilər.

Cəbhədən doğma ocaqlarına qayıtdıqdan sonra Şahalı Həsənov yarımçıq qalmış arzularını həyata keçirdi. 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Geoloji-coğrafiya fakültəsinə qəbul oldu. Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra əmək fəaliyyətinə başladı. Müxtəlif illərdə Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun Fiziki coğrafiya və hidrologiya şöbələrində baş laborant, Əkinçilik İnstitutunun Genetika, seleksiya və toxumçuluq şöbəsində kiçik elmi işçi, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Torpaq coğrafiyası və xəritəçilik şöbəsində kiçik elmi işçi kimi fəaliyyət göstərdi.

Torpaqşünaslıq sahəsini dərindən öyrənmək, təcrübəsini daha da artırmaq üçün Şahalı Həsənov 1953-cü ildə aspiranturaya qəbul oldu. 1958-ci ildə ovaxtkı Stalinqrad Kənd Təsərrüfatı İnstitutunun ixtisaslaşmış elmi şurasında "Ağstafaçay hövzəsinin torpaqları və onların kənd təsərrüfatında istifadə edilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etdi. Araşdırmalardan yorulmayan Şahalı Həsənov 1972-ci ildə Elmlər Akademiyasının Coğrafiya İnstitutunun ixtisaslaşmış müdafiə şurasında "Cənub-Qərbi Azərbaycan torpaqlarının təbii-genetik xüsusiyyətləri və bonitirovkası" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, coğrafiya elmləri doktoru elmi dərəcəsi aldı.

SSRİ Torpaqşünaslıq Cəmiyyətinin, D.İ.Mendeleyev adına Ümumittifaq Kimya Cəmiyyətinin, SSRİ Coğrafiya Cəmiyyətinin üzvü olan Ş.Həsənovun həyatında 1968-ci il yaddaqalan oldu. Həmin il alimin fəal iştirakı ilə ilk dəfə Azərbaycan SSR EA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun nəzdində Torpaqların aqroekologiyası və bonitirovkası laboratoriyası yaradıldı. Çox keçmədi ki, alimin rəhbərliyi altında həmin laboratoriyada neçə-neçə aspirant və doktorantlar hazırlandı.

Azərbaycan Pedoqoji İnstitutunda (indiki Azərbaycan Pedaqoji Universiteti) işlədiyi 35 il ərzində Şahalı Həsənov torpaq coğrafiyası, ümumi yerşünaslıq, yerşünaslıq və diyarşünaslıq, təbiətin mühafizəsi fənlərindən dərs dedi. Kafedraya rəhbərlik etdiyi illərdə laboratoriya məşğələləri və çöl təcrübələrinin tədrisinin praktiki olaraq laboratoriya avadanlıqları və cihazlarla aparılmasına nail oldu.

Zaman keçdikcə Şahalı Həsənovun səsi xarici ölkələrdən gəlirdi. Alim 1976-cı ildə Almaniya Demokratik Respublikası Coğrafiya Cəmiyyətinin dəvəti ilə ADR-də elmi ezamiyyətə getdi. Onun akademik Həsən Əliyevlə birgə Almaniya Coğrafiya Cəmiyyətinin elmi jurnalında genişhəcmli məqaləri çap olundu. Ş.Həsənov 1963-1965-ci illərdə elmi ekspert və sovet mütəxəssislər qrupunun rəhbəri kimi Birmaya ezam edildi. Professor Yanqon şəhərində gənc mütəxəssislər qarşısında elmi mühazirələr oxudu.

Onun "Torpaq nədir", "731-gün Birmada" adlı kitabları, həmçinin "Elm və həyat", "Azərbaycan təbiəti" jurnal və qəzetlərdə dərc olunmuş, "Dəmir dağlar", "Palçıq vulkanları necə əmələ gəlir", "Qitələrin adları haradan alınmışdır?" kimi məqaləri oxucular tərəfindən böyük maraqla qarşılandı.

Professor Ş.Həsənovun 300-dən çox elmi, elmi-kütləvi əsəri, o cümlədən 10 monoqrafiyası çap olunmuşdur. Bunlarla yanaşı, o, 100-dən çox xəritənin, ali məktəblər üçün dərslik və dərs vəsaitinin, dərs proqramlarının, torpaqşünaslıq və coğrafiya fənləri üzrə 6 dildə terminlər lüğətinin müəllifidir. Onun ingilis, alman və fars dillərinə tərcümə olunmuş bir neçə əsəri də çapdan çıxmışdır. Professor həm Azərbaycanda, həm də keçmiş ittifaq respublikalarında 50-dən çox dissertasiyaya opponentlik etmiş, onlarca avtoreferata rəy yazmışdır.

Görkəmli elm xadimi, təcrübəli pedaqoq, Əməkdar müəllim Şahalı Həsənov 2015-ci il avqustun 14-də dünyasını dəyişmişdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Birinci Qarabağ müharibəsinin itkin şəhidləri torpağa tapşırılıb

### Binəqədi rayonu



Birinci Qarabağ müharibəsinin itkin şəhidi Akif Cəbrayıl oğlu Qurbanov avqustun 21-də paytaxtın Binəqədi rayonunun Sulutəpə qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn olunub.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri, Müdafiə, Daxili İşlər nazirliklərinin əməkdaşları, müharibə veteranları, şəhid ailələri və sakinlər iştirak ediblər.

İtkin şəhid yaylım atəşinin və hərbi orkestrin müşayiəti ilə Dövlət himnimizin sədaları altında torpağa tapşırılıb. Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklil qoyulub, gül dəstələri düzülüb.

Tabutun büküldüyü Azərbaycan bayrağı şəhidin yaxınlarına təqdim olunub.

Qeyd edək ki, Birinci Qarabağ müharibəsi şəhidi Akif Qurbanov 1975-ci il oktyabrın 29-da Xırdalan şəhərində anadan olub. O, 1994-cü il aprelin 26-da Ağdam rayonunun Şotlanlı kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb.

Akif Qurbanov Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək bu gün dəfn olunan beş şəhiddən biridir.

### Laçın rayonu



Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və ekspertiza işləri nəticəsində şəxsiyyəti müəyyənləşdirilən şəhid Cümşüd Həsənxan oğlu Məmmədovun nəşinin qalıqları doğma torpağına gətirilərək Laçın şəhər Şəhidlər xiyabanında dəfn olunub.

Əvvəlcə Laçın şəhərində itkin şəhidlə vida mərasimi keçirilib. Din xadimlərinin iştirakı ilə şəhidin ruhuna dualar oxunub, cənazə namazı qılınıb. Mərasimdə şəhidin ailə üzvləri, doğmaları, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin rəsmiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə veteranları, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Mərasimdə çıxış edənlər Vətən uğrunda canından keçən igidlərimizin əziz xatirəsinin hər zaman uca tutulduğunu, onların qanının yerdə qalmadığını və Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın azad olunması sayəsində şəhidlərimizin ruhunun şad olduğunu vurğulayıblar.

Vida mərasimindən sonra şəhidin cənazəsi Laçın şəhər Şəhidlər xiyabanına gətirilib. Cümşüd Məmmədov hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və yaylım atəşinin müşayiəti ilə hərbi ənənələrə uyğun olaraq torpağa tapşırılıb.

Qeyd edək ki, Cümşüd Məmmədov 1962-ci ildə Laçın rayonunun Katos kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1992-ci ildə Laçın rayonunun Zabux kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb. Cümşüd Məmmədov Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək bu gün dəfn olunan şəhidlərdən biridir.

### Neftçala rayonu

Birinci Qarabağ müharibəsinin itkin şəhidi Sərdar Cəfər oğlu İsmayılov Neftçala rayonunun Astanlı kənd qəbiristanlığında dəfn olunub.

Əvvəlcə itkin şəhidlə vida mərasimi olub, cənazə namazı qılınıb. Mərasimdə şəhidin ailə üzvləri, rayon icra hakimiyyətinin nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Vida mərasimindən sonra itkin şəhid hərbi orkestrin və yaylım atəşinin müşayiəti ilə torpağa tapşırılıb.



Qeyd edək ki, Sərdar İsmayılov 1971-ci ildə Neftçala rayonunun Astanlı kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1992-ci ildə Ağdərənin Çıldıran kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb. Sərdar İsmayılov Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək bu gün dəfn olunan şəhidlərdən biridir.

❖ ❖ ❖



Birinci Qarabağ müharibəsinin itkin şəhidi Vaqif Mənsim oğlu Məhərrəmov Neftçala şəhər Şəhidlər xiyabanında dəfn olunub.

Əvvəlcə itkin şəhidlə vida mərasimi olub, cənazə namazı qılınıb. Mərasimdə şəhidin ailə üzvləri, rayon icra hakimiyyətinin nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Vida mərasimindən sonra itkin şəhid hərbi orkestrin və yaylım atəşinin müşayiəti ilə torpağa tapşırılıb.

Qeyd edək ki, Vaqif Məhərrəmov 1971-ci ildə Neftçala şəhərində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1992-ci ildə Ağdərə rayonunun Çıldıran kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb. Vaqif Məhərrəmov Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək bu gün dəfn olunan şəhidlərdən biridir.

### İmişli rayonu



Birinci Qarabağ müharibəsinin itkin şəhidi Mürşüd Nadir oğlu Nərimanov İmişli rayonunda dəfn olunub.

Əvvəlcə itkin şəhidlə vida mərasimi olub, cənazə namazı qılınıb. Mərasimdə şəhidin ailə üzvləri, rayon icra hakimiyyətinin nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Vida mərasimindən sonra itkin şəhid hərbi orkestrin və yaylım atəşinin müşayiəti ilə torpağa tapşırılıb.

Dəfn mərasimində şəhidin ailə üzvləri və yaxınları onun məzarı önünə gül dəstələri düzüb, ruhuna dualar oxuyublar.

Qeyd edək ki, Mürşüd Nərimanov 1963-cü ildə İmişlinin Məzrəli kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1994-cü ildə Ağdam rayonunun Qərvənd kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb. Mürşüd Nərimanov Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək bu gün dəfn olunan şəhidlərdən biridir.

# "Zəngəzur" elektrik ötürmə xəttində işlərin birinci mərhələsi yekunlaşır

**Naxçıvan Muxtar Respublikasının ölkənin əsas elektrik enerji sistemi ilə birləşdirilməsi, eyni zamanda Azərbaycan-Naxçıvan-Türkiyə-Avropa beynəlxalq enerji dəhlizinin formalaşdırılması məqsədilə Zəngəzur xəttinin tikintisinin birinci mərhələsi yekunlaşmaq üzrədir.**



Dövlət başçısının tapşırığına əsasən "Azərenerji" ASC tərəfindən Cəbrayıldan Ağbəndə qədər 74 km məsafədə ikidövrəli olmaqla, 1000 meqavat yükötürmə qabiliyyətinə malik 330 kilovoltluq yüksəkgərginlikli ötürmə xəttinin çəkilməsi başa çatır. Hər birinin çəkisi orta hesabla 30 tondan artıq, hündürlüyü 45 metrə yaxın olan 296 ədəd anker və aralıq dayaqlardan ibarət ötürmə xəttində işlərin 97 faizi icra edilib. Bu ilin qış, yaz və yay ayları da daxil olmaqla, çətin iqlim və sərt relyefdə çəkilən ötürmə xəttində işlər "Azərenerji" tərəfindən ən qısa müddətdə, qrafikdən əvvəl icra olunub.

Növbəti mərhələdə Ordubaddan Naxçıvana qədər 100 km, Zəngəzur dəhlizini (TRIPP) keçməklə 44 km və Naxçıvandan Türkiyəyə 230 km məsafədə ötürmə xəttinin çəkilməsi nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikasının ölkənin vahid enerji sisteminə tam inteqrasiyası, muxtar respublikanın tezlik tənzimlənməsində xarici ölkədən asılılığının aradan qaldırılması, Avropa enerji bazarlarına çıxış imkanlarının yaradılması, həmçinin "yaşıl enerji"nin ötürülməsi baxımından bu layihə strateji əhəmiyyət daşıyır və Azərbaycan tarixinin ən iri enerji layihələrindən biri kimi qiymətləndirilir.

***Nərminə ƏSGƏROVA, "Azərbaycan"***


## B İ L D İ R İ Ş

"İpək Yolu Sığorta" ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir.

***Cəmiyyətin yeni ünvanı:***

**Bakı şəhəri, AZ 1014, Rəsul Rza küçəsi 75, Winter Park Plaza, 8-ci mərtəbə, ofis 802**


# Bilmək istəyirəm

*Avtomobilimi dayanacaqda saxlamışdım. Qayıdanda maşının zədələndiyini gördüm. Bu halda dayanacaq sahibi məsuliyyət daşıyırmı?*

***Əkbər MƏMMƏDOV, Bakı şəhəri***

✓ Sualınıza cavab olaraq bildiririk ki, dayanacaq sahibinin bu halda məsuliyyət daşıması mümkündür, lakin bu məsələ dayanacağın hüquqi statusundan, tərəflər arasında yaranan müqavilə münasibətlərinin növündən və faktiki hallardan bilavasitə asılıdır.

İlkin olaraq dayanacağın hüquqi statusuna diqqət ayırmaq lazımdır. Əgər dayanacaq mühafizə olunan ərazidirsə (məsələn, giriş-çıxışda nəzarət-buraxılış məntəqəsi mövcuddursa, mühafizəçilər və ya kassa çeki varsa) o halda tərəflər (siz və dayanacaq sahibi) arasında saxlama müqaviləsi bağlanmış hesab olunur.

Mülki Məcəllənin 822-ci maddəsinə görə, saxlama müqaviləsinə görə bir şəxs (yük götürən, saxlayıcı) başqa şəxsin (yük verənin, tapşıranın) ona verdiyi daşınar əşyanı saxlamağı və müqavilənin qüvvəsi sona çatdıqda qaytarmağı öhdəsinə götürür.

Bununla yanaşı Mülki Məcəllənin 824.1-ci maddəsinə görə, saxlama haqq müqabilində həyata keçirilirsə, saxlayıcı şərtləşdirilmiş vicdanlılığa riayət edilməsi üçün, qalan hallarda isə bu cür əşyaların saxlanması zamanı adi olan vicdanlılıq üçün məsuliyyət daşıyır.

Qeyd olunan halda sizin avtomobilinizin zədələnməsinə görə dayanacaq sahibi birbaşa məsuliyyət daşıyır.

Əgər dayanacaq, sadəcə, açıq sahədirsə, heç bir mühafizə və ya saxlama öhdəliyi götürülmürsə, sadəcə, yerə görə haqq ödənilirsə (və ya ödənişsizdirsə) bu münasibət saxlama deyil, qısamüddətli icarə və ya yerdən istifadə kimi qiymətləndirilə bilər. Bu halda dayanacaq sahibi avtomobilin fiziki toxunulmazlığına görə cavabdehlik daşımır, məsuliyyət birbaşa zərər vuran şəxsin (avtomobili zədələyən avtomobilin sürücüsünün və s.) üzərinə düşür.

Mövcud mübahisə ilə bağlı daha maraqlı bir fakta münasibət bildirilməsinə zərurət vardır. Belə ki, bəzi hallarda dayanacaqlarda saxlanılan avtomobillərə görə dayanacağın məsuliyyət daşımaması qeyd olunur. Bildiririk ki, belə bir qeydlər hüquqi cəhətdən əsassızdır. Əgər faktiki olaraq saxlanc münasibəti (ödənişli giriş, bilet, mühafizə və s.) varsa, dayanacaq sahibinin birtərəfli qaydada özünü məsuliyyətdən azad etməsi mülki qanunvericiliyin və istehlakçı hüquqlarını qoruyan imperativ normaların ruhuna birbaşa ziddir.

Əgər zədə digər nəqliyyat vasitəsi tərəfindən vurulubsa və həmin sürücü aradan çıxıbsa, saxlama müqaviləsi olduğu halda dayanacaq sahibi zərərə görə sizin qarşısında məsuliyyət daşıyır.

Nəzərə alın ki, siz mülki qanunvericiliyə əsasən, vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilərsiniz. Zərərə avtomobilin bərpası (təmir) xərcləri və bazar dəyərinin düşməsi (dəyərsizləşmə) daxildir. Həmçinin avtomobilin təmirdə olduğu müddətdə ondan istifadə edə bilməməyiniz üçün əldən çıxan faydanı, eləcə də bu müddətdə istifadə etdiyiniz nəqliyyata ödədiyiniz xərcləri də tələb edə bilərsiniz.

Çalışın yaranmış mübahisəni danışıqlar yolu ilə həll edin. Əgər şifahi xəbərdarlıq, yaxud ikitərəfli danışıq nəticə verməzsə, o zaman mübahisənin həlli prosesini rəsmi müstəviyə keçirmək mütləqdir. Bunun üçün ilk növbədə məhkəməyə müraciət etməzdən əvvəl əlinizdə sübutlar (zədəni göstərən, eləcə də avtomobilin dayanacaqda olmasını təsdiqləyən görüntü, dəymiş ziyanın məbləğini müəyyən edən arayış, dayanacağa giriş və çıxış üçün verilmiş bilet və s.) olmalıdır.

Məhkəməyə müraciət etməzdən əvvəl ilkin olaraq inzibati orqana - polisə müraciət edə bilərsiniz. Polisin tərtib edəcəyi hər hansı rəsmi sənəd (protokol və s.) gələcəkdə məhkəmə üçün çox mühüm sübut olacaq. Həmçinin polis əməkdaşından dayanacağın müşahidə kamerasından hadisə yerinin görüntüsünün götürülməsini xahiş edin.

Beləliklə, iddiaçı olaraq cavabdehə (ziyan vuran şəxsə) qarşı "dəymiş ziyanın ödənilməsi" tələbinə dair məhkəməyə iddia ərizəsi ilə müraciət edə bilərsiniz.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Der SPİEGEL: "Berlin "Rus Evi"nə qarşı sanksiyalar tətbiq etməyi müzakirə edir"

**Almaniya hökuməti Leypsiq hava limanında baş verən dron hadisəsindən sonra Rusiyaya qarşı mümkün tədbirləri müzakirə edir. Həftəlik "Der Spiegel" qəzeti avqustun 21-də xəbər verib ki, hakim koalisiya digər məsələlərlə yanaşı, Berlindəki "Rus Evi"nə qarşı sanksiyalar tətbiq etməyi də nəzərdən keçirir.**

Nəşrin qeyd etdiyi kimi, Moskva ilə "Rus Evi"nin fəaliyyətini tənzimləyən müqavilənin ləğvi artıq tabu deyil və mümkün cavab tədbirləri arasında müzakirə olunur. Bildirildiyinə görə, Almaniya hakimiyyəti Rusiyanı Leypsiqdə dron hücumunda açıq şəkildə ittiham etməkdən çəkinir, lakin hücumun arxasında Rusiyanın olduğuna dair getdikcə daha çox dəlil var.

Qəzetin sorğusuna cavab olaraq, Almaniya Xarici İşlər Nazirliyi Berlindəki "Rus Evi"nin fəaliyyət göstərdiyi müqavilənin yenidən nəzərdən keçirilməsini istisna etməyib. Nəşrin qeyd etdiyi kimi, ilkin qərar gələn həftənin əvvəlində verilə bilər.

Xatırladaq ki, 5 avqust gecəsi Saksoniyadakı Leypsiq/Halle hava limanında Ukrayna yük təyyarəsinin yaxınlığında partlayıcı qurğu və detonatorla təchiz olunmuş naməlum mənşəli dron aşkar edilib. ABŞ kəşfiyyatı hesab edir ki, dron Rusiya hökuməti ilə əlaqəlidir. Çünki bir sıra detallar hadisə ilə bağlı olanların yüksək peşəkarlığını göstərir. Məsələn, dron mağazadan alınmayıb, məqsədyönlü şəkildə hazırlanıb və dronda istifadə edilən Semtex partlayıcı maddəsi təyyarənin partlamasına səbəb olacaq qədər güclüdür. Müstəntiqlər tərəfindən nəzərdən keçirilən ən çox ehtimallardan biri də hücumda dövlət subyektinin iştirakıdır.

Son həftələr Berlindəki "Rus Evi"nin bağlanması üçün çağırışlar güclənib. Rəsmi olaraq qurum mədəniyyət mərkəzi kimi fəaliyyət göstərsə də, ("Rus Evi" Rusiya Xarici İşlər Nazirliyinə tabe olan və Aİ sanksiyalarına məruz qalan "Rossotrudniçestvo" dövlət agentliyi tərəfindən idarə olunur) onun Almaniyada Rusiya kəşfiyyat xidmətləri tərəfindən örtük kimi istifadə edilməsi ilə bağlı narahatlıqlar var. WDR telekanalı və "Süddeutsche Zeitung" qəzeti belə bir mümkün əlaqəyə işarə edən Fransa sənədləri barədə məlumat verib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# ABŞ dolları digər valyutalar qarşısında dəyərini itirərək son üç ayın ən aşağı səviyyəsinə düşüb

**ABŞ Maliyyə Nazirliyi 10 ildən 30 ilə qədər olan istiqrazların geri alınması həcmini azı iki dəfə artıracağını açıqlayıb. Bu addımdan sonra ABŞ dolları digər valyutalar qarşısında dəyərini itirərək son üç ayın ən aşağı səviyyəsinə düşüb. Belə ki, nazirliyin bazara müdaxiləsi dolların gəlirliliyini və investorlar üçün cəlbediciliyini azaldaraq onun qiymətinin enməsinə səbəb olub.**

"The İndependent" nəşrinin məlumatına görə, bu müdaxilə nazirliyin uzun müddətdir izlədiyi "nizami və proqnozlaşdırıla bilən" borc idarəetmə yanaşmasından uzaqlaşdığını göstərir və problemi yalnız müvəqqəti olaraq yüngülləşdirə bilər.

Qeyd edək ki, qlobal miqyasda büdcə kəsirlərinin artması, süni intellekt şirkətlərinin data mərkəzləri qurmaq üçün bazardan böyük miqdarda borc alması, həmçinin İran müharibəsinin enerji bazarlarına



yaratdığı sarsıntılar iqtisadiyyata əlavə yük yaradır.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***


**Özəl tibb fəaliyyətini həyata keçirməsi üçün "Academy Estet İnternational" MMC-yə verilmiş EL1056/2025 qeydiyyat nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır.**



BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3316
Sifariş 1069

Qiyməti 60 qəpik